

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 mart
2025-ci il,
çərşənbə axşamı
№ 049 (6877)
Qiyməti
60 qəpik


# QALİB VƏ QÜRURLU OLMAĞIN TƏNTƏNƏSİ

Bax səh. 2





## Təhlükəsizlik və sabitlik adası...

Bax səh. 5

# Dünya nizamı artıq mövcud deyil

Bax səh. 2

## Yeni zəka platforması

Bakıda keçirilən XII Qlobal Bakı Forumunda iştirak edən innovasiya şirkətlərinin və dünya beyin mərkəzlərinin müzakirə etdiyi başlıca mövzulardan biri də süni intellekt texnologiyaları sahəsində beynəlxalq əməkdaşlığın artırılması ilə bağlı olub. Forumda qeyd edilib ki, müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni intellekt daha ön plana çıxmaqdadır. Süni intellekt proqramları danışa və hərəkət edə bilən robot kimi hər gün gündəlik həyatın ayrılmaz texnologiyasına çevrilib.

"Yeni dünya üçün yeni texnologiyalar" mövzusunda keçirilən panel iclasda Beynəlxalq Telekommunikasiya İttifaqının Baş direktorunun müavini Tomas Lamanauskas bildirib ki, yeni texnologiyaların tətbiqi müasir həyatın ayrılmaz tərkib hissəsinə çevrilib və süni intellektin ictimai həyatda rolu durmadan artır. Hazırda dünyada bütün sahələr üzrə süni intellekt texnologiyalarının 45 faizi tətbiq olunur, 25 faizi isə yoxlanılma mərhələsindədir.

T.Lamanauskasın fikrincə, süni zəkanın bütün dünyada tətbiqi üçün qlobal mərkəzlərin yaradılmasına və kadr institutunun fəaliyyətinin artırılmasına ehtiyac var. Bu istiqamətdə əsas qlobal trendlərdən biri kimi ölkələr arasında süni zəka proqramlarının əlaqələndirilmiş formatlarının qurulması da çağırışlardan biridir. Xüsusilə də səhiyyə sənayesinin texnoloji irəliləyişlərində və səhiyyə xidmətlərinin gücləndirilməsində süni texnologiyalara ehtiyacın kəskin artdığı vurğulanıb. Qlobal Əməkdaşlıq Forumunun prezidenti Amir Dossal Azərbaycanın səhiyyə sektorunda gördüyü işlər, süni intellekt sahəsindəki nailiyyətləri barədə məlumat aldığını, ölkəmizdə bu sahədə görülən tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu sahədə digər ölkələrə kömək edə bilər.

Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs isə süni zəka texnologiyalarının dövlətlər arasında geosiyasi rəqabətin dərinləşməsində artan roluna diqqət çəkərək bu sahədəki yeniliklərin bütün ölkələr arasında paylaşılmasını təklif edib. Bir sözlə, qlobal icma Bakıda yeni rəqəmsal texnologiyalar sahəsində öz bilik və təcrübələrini bölüşmək...

Bax səh. 3



Bax səh. 2

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

## Ölkəmiz dünyaya davamlı inkişaf modeli təqdim edir

Bax səh. 6

## "Amerikanın səsi", "Azadlıq Radiosu" erasının qürubu...

Bax səh. 6

## Nicatı Parisdən, Tehrandan uman...

Hazırda Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması, xüsusilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi gündəmin əsas mövzusudur. Məlumdur ki, bir neçə gün öncə rəsmi Bakı iki ölkə arasında sülh müqaviləsi üzrə bütün bəndlərin razılaşdırıldığını və layihə üzrə danışıqların başa çatdığını bəyan edib. Erməni tərəfi də bu faktı təsdiqləyib və hətta müqavilənin imzalanmasının vaxtını və yerini müəyyən etmək üçün danışıqlara hazır olduğunu iddia edib.

Əslində isə bu, ənənəvi erməni hiyləgərliyindən başqa bir şey deyil. Çünki sülh üçün ümidlərin artdığı vaxtlarda erməni tərəfi həmişə təxribatlar törədib. Ermənistan bu dəfə də ənənəsinə "sadiq qalıb". Belə ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, martın 16-da saat 09:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutub. Həmin gün saat 18:35 radələrində isə yenidən qarşı tərəf Gorus rayonunun Xəzinəvar yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atəşə tutub.

Nəzərə alaq ki, Ermənistanın bu hərbi təxribatları baş nazir Nikol Paşinyanın İran prezidenti Pezeşkian və Fransanın prezidenti Makronla telefon danışığının olduğu gün baş verib. Telefon söhbəti zamanı Paşinyan ölkə rəhbərlərini sülh müqaviləsi üzrə danışıqların başa çatması və Ermənistanın bu sənədi imzalamağa "hazır olması" barədə məlumatlandırıb. Amma sual olunur, rəsmi İrəvan sülh müqaviləsini imzalamağa hazırdırsa, nə üçün şərti dövlət sərhədində hərbi təxribatlar törədir? Əlbəttə, erməni tərəfi əvvəlki təcrübəyə əsasən faktiki sülhə maraqlı olmadığını nümayiş etdirir. Təsadüfi deyil ki, bir neçə gün öncə "caliber.az" saytı Ermənistan hakimiyyətinin xarici auditoriyaya yönəlmiş sülhə hazır olması barədə bəyanatlara...

Bax səh. 5

## Atəşkəs, yoxsa müharibə?

Bax səh. 6



## Yeni müharibəyə hazırlıq...

Bax səh. 7



## AP erməni faşizminin dəstəkçisi rolunda...

Bax səh. 7

# Dünya nizamı artıq mövcud deyil

## İlham Əliyev: Hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var




**Bu günlərdə Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə - XII Qlobal Bakı Forumuna uğurla ev sahibliyi edib. Builki Forumun mövzusu son zamanlar xüsusilə aktual olan məsələləri əhatə edib: "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi".**

**Dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadimin, o cümlədən təxminən 50 fəaliyyətdə olan və sabiq prezidentin, Baş nazirin, həmçinin BMT strukturlarının rəhbərlərinin, Nobel mükafatı laureatlarının, çoxsaylı alimlər və ekspertlərin qatıldıqları forum üçün bəhs olunan mövzunun seçilməsi heç də təsadüfi deyil. Qlobal səviyyədə müşahidə edilən proseslər dünyanın gələcəyi üçün ciddi narahatlıqlar yaradır. Prezident İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumu zamanı "Euronews" televiziyasına verdiyi müsahibəsində hazırkı qlobal geosiyasi və geoiqtisadi reallıqlar fonunda yaranan aktual çağırışlara diqqət çəkib.**

### Dünya üçün Azərbaycanın müstəsna təcrübəsi




Hazırda dünyanın mənzərəsi kifayət qədər ziddiyyətli və kədərlidir. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var.

Həqiqətən də, bu gün dünyada ümumi prinsiplərə əsaslanan qaydalar mövcud deyil. Bir sıra hallarda beynəlxalq hüquq arxa plana keçir, ikili standartlar və selektiv yanaşmalar önə çəkilir. Güc mərkəzləri tərəfindən ayrı-ayrı ölkələrə təzyiq göstərmək cəhdləri artıb. Azərbaycan belə yanaşmaları uzun illər ərzində öz üzərində hiss edən, bunu yaşayan dövlətdir. Ölkəmiz otuz il ərzində Ermənistanın işğalından əziyyət çəkib. Ötən əsrin doxsanıncı illərinin əvvəlindən başlayan bu işğal nəticəsində ərazilərimizin 20 faizini itirmişdik, bir milyondan çox azərbaycanlı doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalmışdı. Bu, əsl humanitar fəlakət idi. İnsanlar vaqonlarda və yarımçıq tikililərdə yaşayırdılar. Ancaq beynəlxalq birlik tərəfindən Azərbaycana dəstək göstərilmirdi, təcavüzkar dövlət BMT-nin qətnamələrini yerinə yetirmədiyinə görə cəzalandırılmırdı.

Dünyada oxşar məsələlərin həllinə fərqli yanaşmalar ortaya qoyulması ciddi narahatlıq doğurur. Biz bir sıra hallarda beynəlxalq təsisatların, güc mərkəzlərinin aqressorları ciddi şəkildə qınadıqlarının və onlara qarşı vaxt itirmədən cəza mexanizmlərini, geniş əhatə dairəsinə malik sanksiyaları işə saldıqlarının şahidi olmuşuq. Bəs torpaqlarımızın işğal altında qaldığı otuz il ərzində təcəvüzkar dövlətə - Ermənistana qarşı niyə cilovlayıcı tədbirlər görülmədi? Təcavüzkar dövlətin BMT-nin məlum qətnamələrini iqnor edərək yerinə yetirməməsi və buna görə cəzalandırılmaması beynəlxalq hüquq və prinsiplərin hansı vəziyyətdə olmasından xəbər verir.

Beynəlxalq hüququn işləmədiyi bir şəraitdə Azərbaycanın dövlət başçısı ən doğru yolu, ən düzgün seçimi müəyyənləşdirdi - ölkənin milli gücünü ərazi bütövlüyümüzün təmin olunması naminə səfərbər etdi. Beləliklə, respublikamız 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində təcəvüzkarı kapitulyasiyaya məruz qoymaqla tarixi ədaləti və beynəlxalq hüququ öz gücünə təmin etdi. "Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycanın keçdiyi yol dünyada ikili standartlardan əziyyət çəkən milli dövlətlər üçün gözəl bir nümunədir. Bildirildiyi kimi, bizim yanaşma ondan ibarətdir ki, biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq. Hər bir ölkə anlamalıdır ki, o, öz taleyinin sahibidir. Ölkələr bunu nə qədər tez başa düşsələr, bu, onlar üçün bir o qədər yaxşı olar. Çünki həmişə başqalarının yardımına ümid bəsləmək asılılıq yaradır, milli dövlətləri inkişafdan saxlayır. Yardımlar əbədi ola bilməz. Məğlub Ermənistanın təcrübəsi göstərir ki, yardımlar kəsiləndə və yaxud azalanda buna möhtac olan dövlətlər çıxılmaz duruma düşürlər. Azərbaycanın fərqli seçim etdiyinə diqqət çəkən Prezident İlham Əliyev "Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir", - deyə bildirib.

### İkitərəfli münasibətlərə önəm verilməlidir

Dünyanın hazırkı qeyri-müəyyən reallıqları şəraitində digər vacib bir məqamın da önəmi bütün cəhətləri ilə üzə çıxıb. Bu da ondan ibarətdir ki, dövlətlər arasındakı problemlərin həllində danışıqların birbaşa, ikitərəfli formatda aparılmasına üstünlük verilməlidir. Bunun vacibliyini vurğulayan dövlətimizin başçısı deyib: "İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir. Əlbəttə, biz hələ ki, qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq".

Postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesində əldə olunan nəticələr danışıqların ikitərəfli formatda aparılmasının üstünlüklərini əyani şəkildə ortaya qoyur. Keçmiş Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar 44 günlük müharibəyədək əsasən Minsk qrupu formatında aparılırdı. Dünyanın üç güclü dövləti - Fransa, ABŞ və Rusiya Minsk qrupunda həmsədrlər idilər. Bu çoxtərəfli formatda otuz illik danışıqların nəticəsi isə elə nəticəsizlik oldu.

Çoxtərəfli platformalar hər hansı bir problemin həllini sözün əsl mənasında düyünə salır. Bunun səbəbi odur ki, belə platformalarda təmsil olunan güclərin hər biri sırf öz maraqlarını diqtə etməyə və müəyyən siyasi, iqtisadi dividentlər qazanmağa çalışırlar. Bunu biz postmüharibə mərhələsində Fransanın Brüssel formatında nümayiş etdirdiyi qərəzli yanaşmaların timsalında növbəti dəfə izlədik. Özünü aparıcı qüvvə qismində təqdim etməyə çalışan Yelisey Sarayı, şəxsən Makron əsassız iddialar səsləndirməklə Brüssel formatını bütünlüklə iflasa uğratdı.

Bundan sonra Prezident İlham Əliyevin təşəbbüsü əsasında danışıqlar ikitərəfli formatda aparılır. Artıq sülhyaratma prosesində yeni mərhələyə keçid edildiyi fikrini ifadə edə bilərik. Belə ki, bugünlərdə sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Xəbər verildiyi kimi, sülh sazişi layihəsi bütövlükdə 17 bənddən ibarətdir. Aparılan ikitərəfli dialoqun nəticəsi olaraq 15 bənd üzrə razılaşma əldə olunsa da, son iki bənd rəsmi İrəvanın manipulyativ mövqe sərgiləməsi səbəbindən uzun müddət idi ki, açıq qalırdı. Nəhayət, bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə öz mövqeyini ölkəmizə çatdırıb.

*Mübariz ABDULLAYEV*

# QALİB VƏ QÜRURLU OLMAĞIN TƏNTƏNƏSİ

Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibədə əmin-arxayın şəkildə prosesləri dəyərləndirməsi ilk növbədə, ölkə başçısının böyük siyasi lider olmasının növbəti göstəricisi sayılmalıdır. Milli maraqlar məsələsində heç kəsə, heç bir dövlətə güzəştə getməyən dövlət başçısının bu gün qürurlu və güvənli görünən obrazının arxasında bu gün var olan, yenidən qurulan, azad, abad Azərbaycan dayanır. İlham Əliyev dünyada baş verən proseslərə öz təcrübəsindən, nüfuz və səriştəsindən, bütün çətinlikləri dəf edərək çatdığı həqiqətlərdən çıxış edərək fikir bildirir.

Məhz öz ölkəsinin təcrübəsinə əsaslanaraq, heç bir əlavə köməyə, yardıma bel bağlamayaraq irəli getməyin, qalib olmağın, uğur qazanmağın yollarını göstərir müsahibəsində İlham Əliyev, Azərbaycanın bundan sonrakı inkişafında da şəxsi potensiala və daxili resurslara güvənərək irəliləyəcəyini önə çəkir. "Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var".

İlham Əliyev haqlı olaraq, bu təşkilatları zəif və iflic statusunda təqdim edir. 30 il ərzində beynəlxalq hüququn Qarabağ probleminə qarşı susqun, etinasız münasibəti bu baxımdan, meydanda olan bariz nümunədir.

Prezident İlham Əliyev müsahibəsində Cənubi Qafqazın qarşıdurma və düşmənçilik bölgəsi olduğunu, zaman-zaman hərbi təcavüz və böhranların predmetinə çevrildiyini bildirərək tarixi yaddaşa yenidən ekskurs edir və yeni dövrün reallıq və çağırışları kontekstində vəziyyəti dəyərləndirməyə çalışır: "Hazırda nisbətən sakit dövrdəyik və diqqətimizi buna yönəltməliyik. Növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq".

Ölkə başçısının müsahibəsi hər zamankı kimi milli maraqların üzərində qurulmaqla, həmçinin dünyada baş verən münaqişə və ziddiyyətlərə vurğusu ilə də seçilir. Yaxın tarixdə hansı proseslər baş verəcək, hansı təbəddülatlar gerçəkləşəcək, ölkələr arasında müharibələr bitəcəkmi? İlham Əliyev şəxsi təcrübə və qənaətlərinə əsaslanaraq, analiz və təhlillərini sərgiləyir. Azərbaycan-ABŞ münasibətlərinin dinc məcraya düşməsini bildirir, Rusiya-Ukrayna arasında davam edən müharibə ilə bağlı qənaətlərini bölüşür və Azərbaycan-Ermənistan arasında hələ də həllini gözləyən sülh müqaviləsini yenidən aktuallandırır. Prezident haqlı olaraq bildirir ki, sülh müqaviləsi imzalanmayınca müharibə bitmiş sayılmır. Doğrudan da belədir, bu gün bizimlə Ermənistan arasında hərbi savaş bitsə də, təbliğat, təşviqat, informasiya mübarizəsi davam edir. Və bu, ona görə davan edir ki, Ermənistan dövləti öz öhdəliyindən yayınır, başqa havadarlar və dəstəklər arayır, milli maraqlarını və xalqının asudə yaşamını nəzərə almır.

İlham Əliyev hər zamankı kimi, yenə də sülhə və gərginlikləri yox etməyə çağırır dünya dövlətlərini. Heç bir təsisata güvənmədən ayaq üstə dayanmağın, güclənməyin, öz taleyinin sahibi olmağı bacarmanın yollarını nişan verir: "...əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək, həmin şəxs gəlib sizdən hesabat istəyəcək".

XII Qlobal Forum Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibədə ideyaların toqquşmasına rəvac verən platforma olaraq dəyərləndirilir. İlk növbədə, foruma qatılan 50-də artıq sabiq dövlət və hökümət başçılarının siyasi potensialına, təcrübə və biliklərinə inamla yanaşmaq, bu təcrübələrdən xoş məramlar istiqamətindən yararlanmaq meylini meydana qoyur. İkinci mühüm məqam, fikir plüralizminin önə çəkilməsidir. İlham Əliyevin panellər arasında gedən qızğın müzakirələrin ümumi işin xeyrinə olacağını vurğulaması bu baxımdan səbəbsiz deyil. Çünki böyük ideyalar adətən fikir müxtəlifliyi və müzakirələrin mövcud olduğu şəraitdə hasilə gəlir.

Bütün yönləri ilə birlikdə XII Qlobal Forum Azərbaycan dövlətinin müsbət imicinin güclənməsinə xidmət edən platforma olaraq xalqlar arasındakı nizama və sülhə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi həm bunu mühüm amil olaraq dünyanın gözü önünə sərmək, həm də ona aparan yolun nümunəsini meydana qoymaq baxımından müstəsna qürur və dəyər faktıdır.

***ELNARƏ AKİMOVA***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Təyyarə qəzasına obyektiv qiymət veriləcək

## Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əlaqələr, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Valentina Matviyenko Bakı-Qroznı istiqaməti üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığını çatdıraraq, bu məsələnin Rusiyanın istintaq orqanları tərəfindən araşdırıldığını və ona obyektiv qiymət veriləcəyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında parlamentlərarası təmasların davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan əməkdaşlığa öz töhfəsini verməyə hazırdır

## İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin Müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulandı.

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin əhəmiyyətini qeyd etdi.

Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırdı və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını dedi.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd etdi və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğuladı.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıldı.

# Yeni zəka platforması

## XII Qlobal Bakı Forumunda süni intellekt ideyaları sahəsində əməkdaşlığa dair birgə niyyət ifadə olunub

Bakıda keçirilən XII Qlobal Bakı Forumunda iştirak edən innovasiya şirkətlərinin və dünya beyin mərkəzlərinin müzakirə etdiyi başlıca mövzulardan biri də süni intellekt texnologiyaları sahəsində beynəlxalq əməkdaşlığın artırılması ilə bağlı olub. Forumda qeyd edilib ki, müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni intellekt daha ön plana çıxmaqdadır. Süni intellekt proqramları danışa və hərəkət edə bilən robot kimi hər gün gündəlik həyatın ayrılmaz texnologiyasına çevrilib.

“Yeni dünya üçün yeni texnologiyalar” mövzusunda keçirilən panel iclasda Beynəlxalq Telekommunikasiya İttifaqının Baş direktorunun müavini Tomas Lamanauskas bildirib ki, yeni texnologiyaların tətbiqi müasir həyatın ayrılmaz tərkib hissəsinə çevrilib və süni intellektin ictimai həyatda rolu durmadan artır. Hazırda dünyada bütün sahələr üzrə süni intellekt texnologiyalarının 45 faizi tətbiq olunur, 25 faizi isə yoxlanılma mərhələsindədir.

### “Yeni dünya üçün yeni texnologiyalar”

T.Lamanauskasın fikrincə, süni zəkanın bütün dünyada tətbiqi üçün qlobal mərkəzlərin yaradılmasına və kadr institutunun fəaliyyətinin artırılmasına ehtiyac var. Bu istiqamətdə əsas qlobal trendlərdən biri kimi ölkələr arasında süni zəka proqramlarının əlaqələndirilmiş formatlarının qurulması da çağırışlardan biridir. Xüsusilə də səhiyyə sənayesinin texnoloji irəliləyişlərində və səhiyyə xidmətlərinin gücləndirilməsində süni texnologiyalara ehtiyacın kəskin artdığı vurğulanıb. Qlobal Əməkdaşlıq Forumunun prezidenti Amir Dossal Azərbaycanın səhiyyə sektorunda gördüyü işlər, süni intellekt sahəsindəki nailiyyətləri barədə məlumat aldığını, ölkəmizdə bu sahədə görülən tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu sahədə digər ölkələrə kömək edə bilər.

Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs isə süni zəka texnologiyalarının dövlətlər arasında geosiyasi rəqabətin dərinləşməsində artan roluna diqqət çəkərək bu sahədəki yeniliklərin bütün ölkələr arasında paylaşılmasını təklif edib. Bir sözlə, qlobal icma Bakıda yeni rəqəmsal texnologiyalar sahəsində öz bilik və təcrübələrini bölüşmək, birgə əməkdaşlıq platforması yaratmaq üçün yekdil mövqe nümayiş etdirib.

XII Qlobal Bakı Forumu bir daha müxtəlif ölkələrin rəqəmsal inkişaf və süni intellekt quruculuğunda Azərbaycanın açıq təşəbbüskar ölkə kimi nüfuzunu təsdiqlədi, Eyni zamanda, respublikamızda bu sahədə yeni təşəbbüslərin meydana çıxması və uğurlu tətbiqlər üçün stimulverici rol oynadı. Bu, həmçinin, ölkəmizdə süni intellekt quruculuğunda yerli şirkətlərimizin xarici innovasiya mərkəzləri ilə əlaqələrində yeni fürsətlər yaradır.




### Robot texnologiyalarının ÜDM-də payı artacaq

Robot texnologiyaları qlobal ÜDM-in artmasına, inkişaf etmiş ölkələrin milli məhsul istehsalında əsas əlavə dəyər yaradan sahələrdən birinə çevrilməkdədir. Yaponiya və Çin iqtisadiyyatında yaranan əlavə dəyərin təxminən 1 faizə yaxını bu sektorun payına düşür. 2030-cu ilədək süni intellekt sahəsində Çinin gəliri təxminən 60 milyard dollar təşkil edəcək.

Bu baxımdan Azərbaycan da qlobal rəqəmsal çağırışlardan geri qalmamaq üçün özünün strateji konsepsiyasını müəyyən edir. Azərbaycan hökumətinin hazırladığı yeni rəqəmsal iqtisadiyyat strategiyasında da süni intellektin inkişafına dair hədəf prioritetləri nəzərdə tutulub. Yeni dövrdə qurulacaq ekosistem startap, inkubasiya və akselerasiya mərkəzləri, vençur və kraudfandinq institutları və s. texnoloji tutumlu sahələrə söykənəcək.

### Süni intellekt dövlət və özəl sektorda

Hazırda Azərbaycan iqtisadiyyatının və idarəetmə sektorunun müxtəlif sahələrində, o cümlədən, sənaye, energetika, kənd təsərrüfatı, SOCAR, səhiyyə parkları, futbol, güləş, cüdo və digər sahələrdə süni intellekt texnologiyalarının tətbiqi geniş vüsət almaqdadır. Eləcə də, müxtəlif biznes layihələrində, tikinti və texnologiyalar sahələrində süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələrin icrası həyata keçirilir.

IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) aparıcı beynəlxalq rəqəmsal texnologiya şirkətləri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətdə onlayn təhsil platformalarından biri olan “Coursera” ilə qurulmuş əməkdaşlıq çərçivəsində minlərlə vətəndaşımız faydalanıb və süni intellekt sahəsində innovasiyaları təşviq edən 42 ölkə və 118 proqram arasında qalib olub. Həmçinin, Azərbaycan dilində generativ süni intellekt və böyük dil modelləri var ki, bu da innovativ təşəbbüsləri və ideyaları inkişaf etdirməyə imkan verir. Təkcə “Coursera” platformasındakı 20 kursun təşkili “DeepFake” texnologiyası vasitəsilə Azərbaycan dilinə tərcüməyə imkan verəcək.

### 4,4 milyard dollar həcmində süni zəka dividendləri

Respublikamız 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmlərini də artıra bilər.

*E.CƏFƏRLİ*

# AP erməni faşizminin dəstəkçisi rolunda...

## Təşkilatın qəbul etdiyi sonuncu qətnamə bunun göstəricisidir

Erməni lobbisinin yuvası olan Avropa Parlamenti martın 13-də Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul edib. Bu dəfə qurum Bakıda məhkəməsi davam edən erməni canilərin müdafiəsinə qalxıb. “Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri” adlı “sənəd” müharibə cinayətləri törətmiş Xocalı cəlladları olan canilərin azad olunmasına “çağırış” edir. Nə qədər absurd olsa da, Avropa Parlamenti onların həbsini “qanunsuz” sayır. Qətnamə, həmçinin bu məhkəməni həyata keçirən hakimlər Zeynal Ağayev, Camal Ramazanov və Anar Rzayevə qarşı məqsədyönlü sanksiyaların tətbiq edilməsinə “çağırır”.

### Milli Məclis təşkilata nələri xatırladıb?

Bu qətnamə Avropa Parlamentinin ölkəmizə qarşı ilk qərəzli sənədi deyil. Müstəqillik dövrümüzdə təşkilat dəfələrlə bu tipli sənədlər qəbul edib. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə də Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçılıq siyasətini pisləyən qətnamələr qəbul etməyib, əksinə, “insan hüquqları” bəhanəsi ilə Azərbaycana qarşı sənədlər qəbul edib.




Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra isə təşkilat ölkəmizə qarşı düşmən mövqeyi sərgiləyir. 44 günlük Vətən müharibəsindən sonra Avropa Parlamentində ölkəmizə qarşı qəbul edilən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur. Yeri gəlmişkən, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin qəbul etdiyi sözügedən qətnamə ilə əlaqədar təşkilata etiraz məktubu ünvanlayıb. Məktubda “Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri” adlı qətnamənin əsassız, qeyri-obyektiv və qərəzli olduğu bildirilib. Qeyd olunub ki, suverenlik, qanunun aliliyi və ədalət prinsiplərinin saya alınmadığı bu qətnamədə Azərbaycanın ağır cinayətlərdə iştirak etmiş şəxsləri məhkəmə qaydasında təqib etmək kimi qanuni hüququ tanınmır. Bundan əlavə, qətnamədə son otuz il ərzində mövcud olmuş tarixi şəraitə və Ermənistanın qanunsuz hərəkətləri nəticəsində Azərbaycan xalqının çəkdiyi böyük iztirablara bilərəkdən göz yumulur.

### Müharibə canilərinin dəstəklənməsi qəbulolunmazdır



“Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxın işğal altında saxlayıb, dinc Azərbaycan vətəndaşlarına qarşı saysız-hesabsız müharibə cinayətləri törədib. Bu cinayətlərə etnik təmizləmə, insan hüquqlarının ciddi pozuntuları və Azərbaycanın mirasının sistemli şəkildə məhv edilməsi də daxildir. Avropa Parlamenti bu vəhşiliklər, o cümlədən Xocalı soyqırımı barəsində daim susmağa üstünlük verib. Bu soyqırımı zamanı erməni silahlı qüvvələri uşaqlar, qadınlar və qocalar da daxil olmaqla, 613 günahsız insanı qəddarcasına qətlə yetirib. Azərbaycanın itkin düşmüş 4 minə yaxın dinc sakininin taleyi hələ də məlum deyil, lakin selektiv və qərəzli yanaşmaya əsaslanan Avropa Parlamenti bu cinayətləri görməzdən gəlir, çünki Azərbaycana qarşı haqsız və saxta iddiaları üstün tutur”,- deyə vurğulanan məktubda diqqətə çatdırılıb ki, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan silahlı separatçılıq, sülh və insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və terrorçuluq da daxil olmaqla, ağır cinayətlərdə təqsirli bilinənləri məsuliyyətə cəlb etmək üçün tam qanuni hüquqa malikdir. Qətnamədə Azərbaycanın 2023-cü ildə “blokada” və “etnik təmizləmə” həyata keçirməsi barədə irəli sürülən ittihamlar başqa bir şey deyil, diqqəti haqsızlığın əsl günahkarlarından - onilliklər ərzində Azərbaycan torpaqlarını işğal etmiş, 750 min azərbaycanlını zorla yurdlarından qovmuş və işğal altında saxladıqları bütün şəhər və kəndləri yerlə-yeksan etmiş Ermənistan silahlı qüvvələrindən yayındırmağa yönələn siyasi motivli uydurmalardır.

### Heç bir ədalətsiz ittiham bizi cinayətkarları məsuliyyətə cəlb etməkdən çəkindirə bilməz

Qeyd edilib ki, Qarabağ bölgəsinin Azərbaycanın Konstitusiya çərçivəsinə yenidən inteqrasiyası beynəlxalq hüquqa tam uyğun həyata keçirilib. Bu baxımdan, Avropa Parlamentinin “sanksiyalar”, sazişlərin “dayandırılması” və diplomatik məhdudiyyətlər barədə çağırışları Azərbaycanın daxili işlərinə qarışmaq üçün göstərilən qəbuledilməz cəhdlərdir. Bu cür siyasi motivli hərəkətlər regionda sabitliyə xidmət etmir, əksinə, yalnız gərginliyi artırır və davamlı sülhə nail olmaq perspektivlərini sarsıdır. Azərbaycan haqq-ədalətə, beynəlxalq hüquqa və regional sülh gündəliyinə sadiq olaraq qalır. Heç bir xarici müdaxilə və ya ədalətsiz ittiham bizi qanunun aliliyini qorumaqdan və ölkəmizə qarşı cinayət törədənləri məsuliyyətə cəlb etməkdən çəkindirə bilməz. Hazırda məhkəmə qarşısına çıxarılan şəxslər hərbi əsirlər deyil, Azərbaycan qanunvericiliyini pozmuş, ədalətli və şəffaf məhkəmə prosesi çərçivəsində məsuliyyətə cəlb edilməli olan cinayətkarlardır. Bütün tərəflər belə bir reallığı qəbul etməlidirlər ki, Azərbaycan öz xalqını və ərazisini qanunsuz işğaldan və silahlı separatizmdən qorumaq kimi suveren hüququnu həyata keçirir. Beləliklə, Avropa Parlamentinin qətnaməsi sülhü və ya ədaləti deyil, düşmənçiliyi qızışdırmaq və birtərəfli siyasi gündəliyi təşviq etmək cəhdidir.

Məktub müəllifləri Avropa Parlamentini sülhə və barışığa qarşı yönələn siyasi motivli hərəkətlərə yol verməkdənsə, ədalət və suverenlik prinsiplərinə hörmət bəsləməyə çağırıb. Çünki yalnız haqq-ədalət və qarşılıqlı anlaşma sayəsində Cənubi Qafqazda həqiqi sabitlik əldə edilə bilər.

*Nardar BAYRAMLI*

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib





Martın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2024-cü il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mükəmməl səviyyədə, bütün əhəmiyyətli aspektlər baxımından mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb.

Sonra 2024-cü il üzrə maliyyə hesabatı müzakirə olunaraq İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bütün ərazisində tam suverenliyini təmin edərək növbəti inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanın 2024-cü ildə mühüm uğurlara imza atdığını və yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda duran milli məqsədlərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü söyləyib və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetiriləcəyinə əmin olduğunu bildirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin "Konstitusiya və Suverenlik İli"ndə də ardıcıl nailiyyətlərə imza atacağına inamını ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.





## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

**31 dekabr 2024-cü il tarixinə**

**1 nömrəli Forma**

**VÖEN: 1500150281**
**Siyasi partiyanın adı: YENİ AZƏRBAYCAN PARTİYASI**
**Hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, S. Senyuşkin küçəsi 26**

**(manatla)**

| Bölmə/maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Aktivlər** | | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | | |
| Qeyri-maddi aktivlər | 1 | 34 353 | | 34 547 | |
| Torpaq, tikili və avadanlıqlar | 2 | 31 980 652 | | 25 549 549 | |
| Daşınmaz əmlaka investisiyalar | 3 | - | | - | |
| Uzunmüddətli debitor borcları | 4 | - | | - | |
| Sair uzunmüddətli aktivlər | 5 | 1 600 | | 1 600 | |
| **Cəmi uzunmüddətli aktivlər** | | | **32 016 605** | | **25 585 696** |
| **Qısamüddətli aktivlər** | | | | | |
| Ehtiyatlar | 6 | 110 653 | | 134 104 | |
| Qısamüddətli debitor borcları | 7 | 106 809 | | 92 494 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 40 589 591 | | 30 226 011 | |
| Sair qısamüddətli aktivlər | 9 | 22 940 | | 32 166 | |
| **Cəmi qısamüddətli aktivlər** | | | **40 829 993** | | **30 484 775** |
| **Cəmi aktivlər** | | | **72 846 598** | | **56 070 471** |
| **Xalis aktivlər (kapital) və öhdəliklər** | | | | | |
| **Xalis aktivlər (kapital)** | | | | | |
| Ehtiyat fondu | 10 | 8 151 664 | | 1 600 000 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 11 | 64 609 420 | | 54 395 660 | |
| **Cəmi xalis aktivlər (kapital)** | | | **72 761 084** | | **55 995 660** |
| **Uzunmüddətli öhdəliklər** | | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | - | | 6 767 | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | 13 | - | | - | |
| Uzunmüddətli kreditor borcları | 14 | - | | - | |
| Sair uzunmüddətli öhdəliklər | 15 | 48 438 | | - | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | **48 438** | | **6 767** |
| **Qısamüddətli öhdəliklər** | | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | 6 767 | | 20 300 | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 17 | - | | - | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 8 823 | | 19 835 | |
| Qısamüddətli kreditor borcları | 19 | 14 688 | | 27 909 | |
| Sair qısamüddətli öhdəliklər | 20 | 6 798 | | - | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | | **37 076** | | **68 044** |
| **Cəmi öhdəliklər** | | | **85 514** | | **74 811** |
| **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | **72 846 598** | | **56 070 471** |

## MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

**31 dekabr 2024-cü il tarixinə**

**2 nömrəli Forma**

**VÖEN: 1500150281**
**Siyasi partiyanın adı: YENİ AZƏRBAYCAN PARTİYASI**
**Hüquqi ünvanı: Bakı ş, Xətai rayonu, S. Senyuşkin küçəsi 26**

**(manatla)**

| Maddələrin/hesabların adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Gəlirlər** o cümlədən: | | | **35 009 092** | | **32 929 355** |
| üzvlük haqqı | 21 | 31 387 950 | | 29 674 281 | |
| ianə | 22 | - | | 650 | |
| dövlət maliyyə yardımı | 23 | 2 598 862 | | 2 388 599 | |
| çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir | 24 | 501 414 | | 519 163 | |
| ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışından gəlir | 25 | - | | - | |
| mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir | 26 | 25 140 | | 20 050 | |
| hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak | 27 | - | | - | |
| qanunla qadağan olunmayan digər gəlirlər | 28 | 495 726 | | 326 612 | |
| **Xərclər,** o cümlədən: | | | **(24 795 332)** | | **(22 760 238)** |
| cari işlərə sərf olunan vəsait | 29 | (1 451 858) | | (1 128 210) | |
| siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər | 30 | (19 495 886) | | (18 462 899) | |
| ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər | 31 | (675 280) | | (250 200) | |
| yerli (aşağı) təşkilatlara ödənişlər | 32 | - | | - | |
| kreditlər üzrə faizlər | 33 | - | | - | |
| fərdi xərclər | 34 | (255 154) | | (90 997) | |
| sair xərclər | 35 | (2 917 154) | | (2 827 932) | |
| **ümumi mənfəət (zərər)** | | | **10 213 760** | | **10 169 117** |

davamı 5-ci səhifədə

əvvəli 4-cü səhifədə

AZEL-AUDİT
Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**MÜSTƏQİL AUDİTORUN HESABATI - RƏYİ**

**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinə**

**Maliyyə hesabatının auditinə dair hesabat (Rəy)**

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 18.01.2021-ci il tarixli № AT/118 saylı icazəyə əsasən fəaliyyət göstərən "Azel-Audit" MMC-nin direktoru, Auditorlar Palatasının üzvü Süleymanova Elzadə Süleyman qızı, Yeni Azərbaycan Partiyasının (bundan sonra "Partiya") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat və həmin tarixdə tamamlanan il üzrə maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, eləcə də əhəmiyyətli uçot siyasəti və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatının audit yoxlamasını apardım.

Hesab edirəm ki, təqdim edilən maliyyə hesabatı bütün əhəmiyyətli aspektlər baxımından Partiyanın 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə fəaliyyətinin nəticələrini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydaları"na və 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na uyğun olaraq düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatın "Maliyyə hesabatının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nin tələblərinə uyğun olaraq Partiyadan asılı deyiləm. Mən digər etik öhdəliklərimi Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nin tələblərinə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatına görə rəhbərliyin və audit subyektinin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydaları"na və 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır.

AZEL-AUDİT
Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**Maliyyə hesabatının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatında əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və maliyyə hesabatının auditinə dair hesabat (rəy) dərc etməkdir.

Beynəlxalq audit standartlarının (BAS) tələblərinə uyğun olaraq audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar şübhə (skeptisizm) nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatında əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Partiyanın fəaliyyətini fasiləsiz davam etmək imkanını şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

"Azel Audit" MMC-nin

direktoru və auditoru: Süleymanova E. S

Azərbaycan Respublikası, Bakı şəhəri

10 mart 2025-ci il

# Təhlükəsizlik və sabitlik adası...

## Qlobal hesabatda Azərbaycan ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib

**Hazırda dünyada ən aktual çağırışlardan biri terrorizmə qarşı mübarizənin səmərəliliyinin artırılmasıdır. Aydın şəkildə başa düşülür ki, heç kəsin sığortalanmadığı terrorizmin əhatə dairəsinin kiçildilməsi üçün qlobal miqyasda uzlaşdırılmış fəaliyyət həyata keçirilməli, eyni zamanda, milli səviyyələrdə hər bir dövlət öz məsuliyyətini daha da artırmalıdır. Bir qədər bundan əvvəl "Global Terrorism Index 2025" (GTI) hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edilib. Beynəlxalq akademik institutlar, Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və digər beynəlxalq təşkilatlar üçün istinad mənbəyi kimi çıxış edən "Global Terrorism Index" hesabatları İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanır. Hesabata əsasən, Azərbaycanın nəticələri əvvəlki illərlə müqayisədə daha da yaxşılaşıb. Belə ki, ölkəmiz terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0.233" indekslə 2024-cü illə müqayisədə (89) bir reytinq də yüksələrək 2025-ci ildə 90-cı yerdə qərarlaşmaqla, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.**

## Dünyadakı kədərli mənzərə

Təəssüf doğuran haldır ki, Dördüncü sənaye inqilabı dövründə dünya həm də bir sıra təhdidlərlə üz-üzə qalıb. Ayrı-ayrı ölkələr və xalqlar, müxtəlif mədəniyyətlər, bütövlükdə, bəşəriyyət üçün getdikcə daha ciddi təhlükə yaradan təhdidlərdən biri də terrordur. Dünyanın müxtəlif guşələrində ən ağlagəlməz ssenarilərlə törədilən terrorlarla bağlı statistikanın dinamikası kifayət qədər yüksəkdir. 2024-cü ildə dünya Kirmanda, Bəlucistanda, Almaniyada, Türkiyədə, Moskva vilayətində "Crocus City Hall" binasında və digər ünvanlarda baş verən dəhşətli terror hadisələri ilə silkələndi. Oxşar faciələr Malidə, Əfqanıstanda, Pakistanda, Somalidə, Burkina Fasoda, Nigeriyada da yaşanıb. Baş verən terror hadisələri zamanı aralarında qocalar, qadınlar və uşaqlar da olmaqla yüzlərlə insan həyatını itirib, yaxud ağır xəsarət alıb. Sonsuz kədər doğuran faktlar son illərdə dünyanın necə bir dəhşətli təhlükə ilə üz-üzə dayandığı barədə konkret təsəvvür yaradır.

"Global Terrorism Index" (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır. Təqdim edilən hesabata əsasən, ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara - 1.Burkina Faso (8.581), 2.Pakistan (8.374), 3.Suriya (8.00) daxil edilib.

Qeyd olunan sıralamada İsrail (7.463) 8-ci, Rusiya (6.267) 16-cı, İran (6.056) 18-ci, Türkiyə (3.968) 32-ci, ABŞ (3.517) 34-cü, Fransa (2.712) 40-cı, Niderland (1.402) 60-cı, Norveç (1.198) 66-cı, Finlandiya və Yaponiya (0,949) 72-ci, Danimarka və Ermənistan (0.72) 79-cu, Avstriya və Cənubi Koreya (0.582) 82-ci, Latviya və Litva (0.423) 86-cı yerdə qərarlaşıb .




Müstəqil Azərbaycan da terrordan əziyyət çəkən ölkələr sırasında yer alır. Respublikamızın üzləşdiyi faciələr bir qayda olaraq erməni terrorçularının ssenariləri əsasında baş tutub. Ötən əsrin 90-cı illərində Ermənistan xüsusi xidmət orqanlarının hazırladıqları terrorçular Bakı metrosunda bir neçə partlayış törətməyə nail olublar.

Respublikamızda ehtimal olunan risklər nəzərə alınmaqla terrorizmə qarşı dövlət səviyyəsində ciddi mübarizə aparılır. Ölkəmiz terrorçuluğa qarşı beynəlxalq mübarizə sahəsində qlobal səylərə fəal töhfə verir. ABŞ-da törədilmiş 11 sentyabr 2001-ci il tarixli terror hadisələrindən sonra Azərbaycan terrorçuluğa qarşı beynəlxalq koalisiyanın fəal üzvlərindən birinə çevrilib.

Paralel şəkildə, terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericilik davamlı olaraq beynəlxalq öhdəliklərə uyğunlaşdırılır. Hazırda respublikamız terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyanın hamısına tərəf olaraq qoşulub. Milli qanunvericiliyin davamlı şəkildə təkmilləşdirilməsi institusional islahatlarla dəstəklənir. Respublikamızda müvafiq sahədə əsas səlahiyyətli dövlət qurumları Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətidir. Hüquq-mühafizə qurumları ilə yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti qurumlar tərəfindən terrorçuluğa qarşı mübarizədə preventiv və sosial xarakterli tədbirlər görülür və fəaliyyətlər uzlaşdırılır. Maliyyə Monitorinqi Xidməti ölkənin əsas maliyyə kəşfiyyatı qurumu olaraq terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində ixtisaslaşıb. Qurumun institusional əsası və funksiyaları İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) standartlarına uyğunlaşdırılıb.

## Azərbaycanın dərin məsuliyyəti

Azərbaycan terrorçuluğa qarşı mübarizə sahəsində regional və beynəlxalq əməkdaşlıq mexanizmlərində də fəal iştirak edir. Ölkəmizin terrorçuluğa qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında BMT-nin Terrorçuluqla Mübarizə İdarəsini, ATƏT-in Transmilli Təhdidlər Departamentini, Avropa Şurasının Terrorçuluğa qarşı mübarizə üzrə Ekspertlər Qrupunu (CODEXTER), eləcə də GUAM, Avropa İttifaqı, MDB, Şanxay Əməkdaşlıq Təşkilatını və digərlərini qeyd edə bilərik.

Sənəddə vurğulanır ki, Azərbaycanda belə təhlükəsizlik səviyyəsinə destruktiv qüvvələrin dini, etnik və digər zəminlərdə pozucu planlarından meşələrdə sığınacaqlar yaradılması cəhdlərinədək hər cür terror-təxribat həmlələrinin olduğu bir şəraitdə nail olunub.

Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqinə sahiblənib.

*Mübariz FEYİZLİ*

# Nicatı Parisdən, Tehrandan uman...

## "Sülh göyərçini" təxribat yolunu seçir

**Hazırda Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması, xüsusilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi gündəmin əsas mövzusudur. Məlumdur ki, bir neçə gün öncə rəsmi Bakı iki ölkə arasında sülh müqaviləsi üzrə bütün bəndlərin razılaşdırıldığını və layihə üzrə danışıqların başa çatdığını bəyan edib. Erməni tərəfi də bu faktı təsdiqləyib, hətta müqavilənin imzalanmasının vaxtını və yerini müəyyən etmək üçün danışıqlara hazır olduğunu iddia edib.**

## Ənənəvi erməni hiyləgərliyi

Əslində isə bu, ənənəvi erməni hiyləgərliyindən başqa bir şey deyil. Çünki sülh üçün ümidlərin artdığı vaxtlarda erməni tərəfi həmişə təxribatlar törədib. Ermənistan bu dəfə də ənənəsinə "sadiq qalıb". Belə ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, martın 16-da saat 09:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutub. Həmin gün saat 18:35 radələrində isə yenidən qarşı tərəf Gorus rayonunun Xəzinəvar yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atəşə tutub.

Nəzərə alaq ki, Ermənistanın bu hərbi təxribatları baş nazir Nikol Paşinyanın İran prezidenti Pezeşkian və Fransanın prezidenti Makronla telefon danışığının olduğu gün baş verib. Telefon söhbəti zamanı Paşinyan ölkə rəhbərlərini sülh müqaviləsi üzrə danışıqların başa çatması və Ermənistanın bu sənədi imzalamağa "hazır olması" barədə məlumatlandırıb. Amma sual olunur, rəsmi İrəvan sülh müqaviləsini imzalamağa hazırdırsa, nə üçün şərti dövlət sərhədində hərbi təxribatlar törədir? Əlbəttə, erməni tərəfi əvvəlki təcrübəyə əsasən faktiki sülhə maraqlı olmadığını nümayiş etdirir. Təsadüfi deyil ki, bir neçə gün öncə "caliber.az" saytı Ermənistan hakimiyyətinin xarici auditoriyaya yönəlmiş sülhə hazır olması barədə bəyanatlara baxmayaraq, Azərbaycanla yeni müharibəyə fəal şəkildə hazırlaşması barədə məlumat yaymışdı. Məlumatda qeyd olunurdu ki, rəsmi İrəvanın son hərəkətlərinin bütün məntiqi, revanşist əhval-ruhiyyə ilə dolu və güclü şəkildə militarizasiya olunan, regionun tezliklə erməni tərəfinin təhrik etdiyi növbəti müharibə ilə partlayacağını göstərir: "Üstəlik, Ermənistan artıq qarşıdurmanın yeni mərhələsinə hazırlıqlarını gizlətmir - belə ki, keçən həftə hökumətin iclasında elan edilib ki, ehtiyatda olanların növbəti toplanışları Ermənistanda 1 aprel - 13 iyun tarixlərində keçiriləcək".

## Paşinyanın məqsədi nədir?

Bütün bunların fonunda sülh sazişinin qısa müddətdə imzalanması ilə mətndən kənar məsələləri arxa fona keçirməyə çalışan Paşinyanın bir sıra ölkələrin rəhbərlərinə telefon zənginin müəyyən məqsədi var. Region dövlətlərinə gəlincə, erməni baş nazir onların dəstəyini əldə edərək Azərbaycan qarşısında balansı öz xeyrinə dəyişdirməyə cəhd göstərir. Digər tərəfdən, Paşinyan yəqin ki, Fransanın timsalında Avropanın dəstəyinə nail olmaq və Parisin vasitəsilə Bakıya qarşı Qərbdən "sülh sazişinin imzalanması" çağırışlarını təşkil etməyi düşünür.

Görünən odur ki, Ermənistan Azərbaycana qarşı regional-regiondankənar təzyiq trayektoriyası formalaşdırmağa cəhd göstərir. Diplomatik addımlara paralel olaraq, şərti sərhəddə yenidən təxribatlara əl atmaları da beynəlxalq gündəliyi "regional sabitliyin yolu sülh sazişinin qısa müddətdə imzalanmasından keçir" istiqamətində formalaşdırmaq məqsədi daşıyır. Qarşıdakı dövrdə təxribatın və "sazişin tezliklə imzalanması" çağırışlarının intensivliyinin artması da istisna deyil.

Bundan əlavə, Ermənistan Azərbaycanla sərhəddə gərginlik yaratmasından Qərbdən və Hindistandan yeni silahlar alınmasını özü üçün bir bəhanə kimi istifadə edə bilər. Yəni, bu təxribatlar Ermənistan ordusunun gücləndirilməsi cəhdi üçün də istifadə olunur. Mediada yayılan məlumatlara görə, Ermənistan yeni aldığı silahları sərhəddə toplayır. Bu, bir daha həmin silahların Paşinyan hakimiyyətinin dediyi kimi müdafiə üçün deyil, hücum üçün olduğunu göstərir. Avropa İttifaqının "mülki missiyasının" Ermənistanın son təxribatlarına səssiz qalması da bu baxımdan, ciddi suallar yaradır.



Sülh sazişi ilə bağlı danışıqların yekunlaşmasından sonra Ermənistanda müharibəyə hazırlıqların getdiyini sübut edən digər faktlar da var. Belə ki, kütləvi informasiya vasitələri tərəfindən son günlər Ermənistanın Azərbaycanla şərti sərhəddəki erməni postlarında mühəndis-istehkam işləri həyata keçirməsi barədə video-görüntülər yayımlayıb.

## İrəvan məlum şərtləri yerinə yetirməlidir

Bütün hallarda, rəsmi İrəvanın hazırkı davranışı qəbulolunmazdır. Erməni tərəfi anlamalıdır ki, Azərbaycanla sülh imzalamalıdır, belə olan təqdirdə İran və Fransa ilə yox, Bakı ilə danışmalıdır. Rəsmi Bakının mövqeyi isə aydındır. Sülh müqaviləsinin mətni üzrə danışıqlar yekunlaşsa da, sənədi imzalamaq üçün İrəvan məlum şərtləri yerinə yetirməlidir. Belə ki, Ermənistan konstitusiyasında və digər normativ hüquqi aktlarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dair iddialar aradan qaldırılmalıdır. Paşinyanın və digər erməni rəsmilərinin "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır" sözlərinin heç bir hüquqi qüvvəsi yoxdur. Yəni, bu məsələlər hüquqi sənədlərlə tənzimlənir. Ermənistanın konstitusiyasında, müstəqillik bəyannaməsində və parlamentinin qərarlarında ölkəmizə qarşı ərazi iddiaları hələ də mövcuddur. Ona görə də, Azərbaycan öz tələblərində haqlıdır.

*Nardar BAYRAMLI*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

# Ölkəmiz dünyaya davamlı inkişaf modeli təqdim edir

*Sahib*

Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu öz aktuallığını qorumaqdadır. Ölkəmizdə bu sahədə davamlı islahatlar aparılır. Məlumdur ki, hər bir insana, cəmiyyətə özünü realizə etmək, harmonik inkişafa imkan yaratmaq üçün əsas vasitələrdən biri demokratik amillərdir. Ona görə də demokratik cəmiyyətlərdə idarəetmə və təşkilatçılıq aktualdır. Bütün insanlar bərabər hüquq və azadlıqlara sahibdir. Eyni zamanda hər bir vətəndaşın konstitusion vəzifələrini yerinə yetirməsi tələb olunur. Belə cəmiyyətlərdə ilk olaraq hüquqi dövlət quruculuğu prosesi gedir. Hüquqi dövlətin formalaşması prosesi isə həyati tələbatdır. Bu anlayış yalnız dövlət çərçivəsində deyil, eyni zamanda, bütün cəmiyyətə aiddir.

Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlət qurulması, eləcə də vətəndaş cəmiyyətinin bərqərar olması ölkə vətəndaşları üçün qürurvericidir. İlk növbədə ona görə ki, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin olması ölkədə demokratiyanın, demokratik cəmiyyətin olduğunu təsdiq edir. Ölkəmizdə hüquqi dövlətin qurulmasına və vətəndaş cəmiyyətinin bərqərar olmasına görə qürur hissi keçirməyə məhz bu baxımdan hər birimizin haqqı var. Belə bir cəmiyyətin inkişafından, yüksəlişindən danışmağa dəyər.

**Demokratik inkişafın Azərbaycan modeli**

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yeni Azərbaycan"a bildirib ki, qanunların aliliyini təmin edən dünyəvi, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq hər bir cəmiyyət üçün arzuolunandır. Deputatın sözlərinə görə, qürurverici haldır ki, Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlət qurulub və vətəndaş cəmiyyəti bərqərar olunub.

Deputat qeyd edib ki, bütün bunlar ölkəmizdə demokratiyanın olduğunu, demokratik cəmiyyətin mövcudluğunu təsdiq edir: "Bir qayda olaraq dövlət cəmiyyətin, cəmiyyət isə dövlətin köməyi olmadan köklü məsələləri həll edə bilməz. Vətəndaş cəmiyyətinin inkişaf etmiş strukturu olmayan dövlətlərin demokratik olması çox çətindir.



Hazırda Prezident İlham Əliyev vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət ayırır. Təməli Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının üstün tutulması ölkə başçısının yürütdüyü siyasətin qayəsini təşkil edir. Prezidentin siyasətinin mərkəzində insan amili durduğu günümüzün reallığıdır. Bir sözlə, Azərbaycanın dövlət siyasəti vətəndaşın sosial rifahının, təhlükəsiz yaşayışının təmin edilməsinə xidmət edir".

**Ölkəmiz dünyaya davamlı inkişaf modeli təqdim edib**

Millət vəkili vurğulayıb ki, ölkəmizin demokratik inkişaf istiqamətində əldə etdiyi nailiyyətlər beynəlxalq miqyasda da təqdir olunur. Bu istiqamətdə davamlı islahatların həyata keçirilməsi təqdirəlayiq hal kimi qiymətləndirilir: "Cəmiyyət həyatının bütün sahələrində qanunun aliliyi və hüququn üstünlüyü təmin edilib. Ölkəmizdə reallaşdırılan çoxistiqamətli islahatlar siyasi sistemin təkmilləşməsinə mühüm töhfələr verir. Mövcud reallıqlar onu deməyə əsas verir ki, Azərbaycan siyasi, hüquqi, iqtisadi və institusional islahatları davam etdirmək əzmindədir və həyata keçirilən bütün tədbirlər ölkəmizin davamlı inkişafına xidmət edir.

Azərbaycanın demokratik inkişafının təqdirəlayiq olduğunu vurğulayan ekspertlər bildirirlər ki, ölkəmiz dünyaya spesifik xüsusiyyətlərə malik davamlı inkişaf modeli təqdim edib".

**Azərbaycan qısa müddətdə hədəflərinə çatıb...**

B.Məhərrəmovun qənaətincə, əlamətdar haldır ki, Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır: "Bu gün əminliklə demək mümkündür ki, müstəqilliyinin ilk illərində bir sıra ciddi çətinliklərlə üzləşən Azərbaycan qısa müddətdə həm iqtisadi, həm də siyasi sahədə qarşıya qoyduğu əsas hədəflərə çatıb. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən böyük uğurlardan biri kimi dəyərləndirilir. Ölkəmizin demokratik dəyərlərə, fundamental insan hüquq və azadlıqlarına sadiqliyi Konstitusiya və digər hüquqi sənədlərlə təsbit olunub. Azərbaycan daim ölkə Konstitusiyası və digər müvafiq qanunvericilik aktları ilə təsbit olunan demokratik prinsiplərə sadiqlik nümayiş etdirir. Respublikamızda bütün sahələrdə müşahidə edilən dinamik inkişafla paralel surətdə cəmiyyətdə vətəndaş fəallığının artması da məmnunluq doğurur".

# "Amerikanın səsi", "Azadlıq Radiosu" erasının qürubu...

ABŞ-ın yeni administrasiyasının başladığı islahatlar həmçinin dövlət idarəçiliyinin təkmilləşdirilməsi, büdcənin izafi xərclərinin azaldılması kimi mühüm istiqamətləri də əhatə edir. Necə deyərlər, gəmidəki artıq yüklər boşaldılır. İxtisarlar, fəaliyyət sferalarının məhdudlaşdırılması növbəsi həmçinin indiyədək bütün dünyada transmilli media nəhəngləri sayılan "Amerikanın səsi"nə və "Azadlıq Radiosu"na da çatıb.

## "Amerikanın səsi" işləmir, "Azadlıq Radiosu"nun maliyyələşdirilməsi dayandırılıb

Donald Tramp martın 14-də Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sənəd imzalayıb. Sənəd barədə danışan qurumun direktoru Maykl Abramoviç deyib: "Öyrəndim ki, "Amerikanın Səsi"nin 1300-dən çox jurnalisti, prodüseri və texniki heyəti inzibati məzuniyyətə göndərilib. Mən də onların içindəyəm. Bu tarixi media platformasının susması məni dərindən kədərləndirir".

Qeyd edək ki, "Amerikanın səsi" radiostansiyası da agentliyin nəzarətində olub. Bütövlükdə, 49 dildə yayımlanan 5 böyük media korporasiyası, o cümlədən "Azad Avropa/Azadlıq Radiosu" və "Amerikanın Səsi" sözügedən qurum üzərindən maliyyəşdirilib. Siyahıya həmçinin Vudro Vilson Mərkəzi, Federal Vasitəçilik və Barışıq Xidməti, Muzey və Kitabxana Xidmətləri İnstitutu, Evsizlik Problemləri üzrə İdarələrarası Şura, İnkişaf Maliyyə İnstitutları Fondu, Azlıqların Biznesinin İnkişafı Agentliyi və Arktikanın Tədqiqi Komissiyası daxil edilib.

Bundan başqa, "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyası ABŞ hökumətindən maliyyələşdirmənin dayandırılmasına dair sənədin alınmasını təsdiqləyib. Bu barədə korporasiyanın prezidenti Stiven Kapus müvafiq bəyanat yayıb.

Qeyd edək ki, "Amerikanın səsi" yayımlarına ilk dəfə 1942-ci il fevralın 24-də start verib. Transmilli media nəhəngi kimi tanınan radio Azərbaycan dili də daxil olmaqla, ingilis və daha 45 dildə xəbərlər, rəylər, mədəniyyət proqramları yayımlayıb.

"Azadlıq Radiosu"nun baş ofisi 1949-1995-ci illərdə Qərbi Almaniyanın Münxen şəhərindəki İngilis bağında yerləşib. Digər yayım mərkəzi 1951-1996-cı illərdə Portuqaliyanın paytaxtı Lissabonun şərqində yerləşən Qloriya-du-Ribateju kəndində fəaliyyət göstərib. Bu radio 27 dildə 23 ölkədə yayımlanır. Təşkilatın baş ofisi 1995-ci ildən Praqada yerləşir və bütün yayım bölgələrindəki ölkələrdə 500-dən çox əsas işçi heyətə və 21 yerli büroya malikdir. Bundan əlavə, Vaşinqtondakı baş qərargahında və korporativ ofisində 680 işçisi var.

fevral ayında Hökumətin Effektivliyi Ofisinə rəhbərlik edən İlon Mask ABŞ hökumətini "Azadlıq Radiosu" media korporasiyası və "Amerikanın Səsi" radiostansiyasını maliyyələşdirməyi dayandırmağa çağırmışdı. Artıq İ.Maskın çağırışı Trampın imzaladığı müvafiq sənədlə məntiqi sonluğa çatdırılıb.

## Milli dövlətlərə qarşı "yumşaq güc" aləti

Hər iki informasiya mənbəyi üçün xarakterik cəhət ondan ibarətdir ki, onlar mütəmadi qaydada ideoloji silah qismində çıxış ediblər. Zaman dəyişdikcə onlara həvalə olunan vəzifələr də dəyişib. Xüsusilə də keçmiş Sovet İttifaqı dönəmində onların üzərində böyük məsuliyyət yükü var idi. Keçmiş ittifaqın ideoloji buxovları çox sərt idi. Cəmiyyətə ancaq mərkəzi hökumətin izn verdiyi, senzuradan keçən məlumatlar verilirdi. İnsanlar bir növ informasiya blokadasında qalmışdılar. Belə bir şəraitdə xüsusilə də gənclər fərqli və cəlbedici görünən ideyalar təbliğ edən "Amerikanın səsi"nin və "Azadlıq Radiosu"nun daimi izləyicilərinə çevrilmişdilər. Hər iki radio yaydıqları xəbərlər, hazırladıqları verilişlərlə sovet quruluşunun naqis cəhətlərinə diqqət çəkir və cəmiyyətləri narazılığa sövq edirdilər.

"Soyuq müharibə" dövrü bitdikdən sonra "Amerikanın səsi" və "Azadlıq Radiosu" yenə də öz amplualarında qalmaqda davam etdilər. Təkzibolunmaz faktdır ki, hər iki qurum ABŞ administrasiyaları tərəfindən Yaxın Şərqdə və keçmiş ittifaq məkanında yaranan milli dövlətlərə qarşı "yumşaq güc" aləti qismində istifadə olunub. Biz son 30 ildə ayrı-ayrı coğrafiyalarda rəngli inqilablar dalğalarının şahidi olmuşuq. Təəssüf doğuran haldır ki, cəmiyyətlər "Azadlıq Radiosu" və "Amerikanın səsi" kimi media qurumları vasitəsilə təşviq edilən ideyalara aldanaraq milli hökumətlərin devrilməsi, onların yerində oyuncaq rejimlərin qurulması ssenarilərində özləri də bilmədən yer alıblar. Nəticədə həm milli dövlətlər, həm də cəmiyyətlər üçün faciəvi olub.

Oxşar ssenarilərin həmçinin Azərbaycanda da reallaşdırılmasına çoxsaylı cəhdlər göstərilib. Lakin bütün hallarda Azərbaycan dövlətinin qətiyyətli siyasi iradəsi və cəmiyyətimizin hakimiyyətlə sıx həmrəyliyi sayəsində milli maraqlarımıza xələl gətirməyə hesablanan cəhdlərin qarşısı alınıb və ölkəmizdə rəngli inqilab ssenariləri iflasa uğrayıb. Eyni zamanda, Azərbaycan hakimiyyəti ayıq-sayıq davranaraq ümummilli ideologiyamıza zidd təbliğat aparan hər iki radioya qarşı məhdudlaşdırıcı tədbirlər görüb. 2008-ci ildə xarici yayım şirkətləri Azərbaycanın yerli dalğalarından xaric edildikdən sonra "Amerikanın səsi" öz verilişlərini internetdə və peyk televiziyasında yayımlayıb. "Azadlıq Radiosu"nun Azərbaycan xidməti 1953-cü il martın 6-da təsis edilib. Qərəzli fəaliyyəti nəzərə alınmaqla 2014-cü ilin dekabrından radionun Bakı bürosu bağlanıb. Onun verilişləri Praqadan yayımlanıb.

Bütövlükdə, indiki reallıqlar şəraitində "Amerikanın səsi" və "Azadlıq Radiosu" kimi informasiya mənbələrinin əvvəlki populyarlığından əsər-əlamət qalmayıb. Hazırda dünyanın informasiyalara çıxış imkanları kifayət qədər çoxdur. İnsanlar bu və ya digər məlumatları daha etibarlı və qərəzsiz olan mənbələrdən almağa üstünlük verirlər.

*MÜBARİZ*

# Atəşkəs, yoxsa müharibə?

Tramp ilə Putin arasında telefon danışığı gözlənilir. ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiven Vitkoff CNN-ə açıqlamasında bildirib ki, iki ölkənin prezidentləri telefon danışığında ikitərəfli diplomatik-siyasi münasibətlərin bərqərar olunması, qlobal dünyada baş verən proseslər, xüsusilə Ukraynadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparacaqlar. Artıq bir çox ekspertlər iddia edirlər ki, Vaşinqton və Moskva Ukrayna məsələsində ortaq məxrəcə gəliblər - onların fikrincə, yaxın zamanda Rusiya ilə Ukrayna arasında atəşkəs sazişi imzalana bilər. Ekspertlər, həmçinin qeyd edirlər ki, birinci mərhələ başa çatdıqdan sonra Vaşinqtonun vasitəçiliyi ilə Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə sülh danışıqları prosesi başlayacaq.

## Qərb narahatdır

ABŞ-ın "Times" qəzeti qeyd edir ki, əgər Kreml Vaşinqtonun atəşkəs sazişi təklifinə müsbət cavab verməzsə, Tramp pis vəziyyətdə qalacaq. Çünki Tramp buna qədər atəşkəsə məhz Kiyevin əngəl yaratdığını, Moskvanın isə atəşkəsdə maraqlı olduğunu qeyd edirdi. Qəzet yazır ki, ABŞ beynəlxalq ictimaiyyət qarşısında məyus olmamaq üçün Rusiyanı hər hansı yolla atəşkəsə razı salmalıdır.

Artıq Tramp bu məsələdə Moskvaya xəbərdarlıq edib - o,bildirib ki, Rusiyaya qarşı çox ciddi tədbirlər görülə bilər: "Mən Rusiya üçün çox pis olacaq maliyyə sövdələşmələri edə bilərəm. Mən Rusiya iqtisadiyyatına ağır zərbələr vura bilərəm. Rusiya bunun fərqinə varmalıdır". Tramp onu da bəyan edib ki, Rusiya atəşkəsə razı olarsa, Ukraynadakı müharibə tez bir zamanda sona çatacaq.

Rusiya tərəfi isə Trampın atəşkəs planını nəzərdən keçirəcəyini bildirib. Rusiyanın Britaniyadakı səfiri Andrey Kelin Qərb mətbuatına açıqlamasında deyib ki, Moskva Vaşinqtonun təklifinə ehtiyatla yanaşır. "Biz Amerikanın atəşkəslə bağlı təklifini nəzərdən keçirəcəyik. Lakin biz hərbi əməliyyatları yalnız tam, hərtərəfli razılaşma əldə etdikdən sonra dayandıracağıq. Rusiya Federasiyası dəfələrlə bəyan edib ki, müvəqqəti atəşkəs vəziyyəti həll etmək üçün variant deyil. Biz buna çox ehtiyatla yanaşırıq," - deyə A.Kelin vurğulayıb. Rusiya Dövlət Dumasının üzvləri Moskvanın ABŞ-ın Rusiya Federasiyanın iqtisadi, enerji və bank sektoruna sanksiyaları ləğv edəcəyi təqdirdə atəşkəsə razı olacağını bildiriblər. Mark Rubio isə sanksiyaların ləğvinin yalnız Rusiya atəşkəsə getdikdən və sülh danışıqları masası arxasına oturduqdan sonra mümkün olduğunu qeyd edib. ABŞ Dövlət katibi Ukrayna ilə bağlı ABŞ-Rusiya təmaslarının ümidverici olduğunu desə də, Moskvaya xəbərdarlıq mesajı göndərib: "Əgər Rusiya tərəfi atəşkəsə razılaşmasa, Vaşinqton Ukraynaya dəstəyi artıracaq. Ukraynanı silahlarla təchiz etməyə davam edəcəyik".



Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp hər vəchlə Rusiya ilə Ukrayna arasındakı müharibəni bitirməyə çalışır. "İlk növbədə vurğulayım ki, Rusiya ilə Ukrayna arasında atəşkəsin təmin olunması Tramp administrasiyasının siyasi gündəliyində ilkin prioritetdir. Trampın gündəlik iş qrafikinin əhəmiyyətli hissəsi, demək olar ki, Ukraynadakı müharibənin dayandırılmasına yönəlib. Tramp ilə Putin arasında keçirilən telefon danışıqlarında əsas müzakirə predmetləri ABŞ-Rusiya münasibətləri və Ukraynadakı müharibə olub. Önümüzdəki günlərdə iki dövlət rəhbəri arasında keçiriləcək telefon danışıqlarında da bu məsələlər ətraflı müzakirə olunacaq. Ukraynadakı vəziyyətə daha çox diqqət ayrılacaq".

## Atəşkəs əldə olunacaqmı?

Politoloq vurğulayıb ki, hazırki durumda hər iki tərəfin atəşkəsə ehtiyacı var: "Hazırda Rusiya və Ukrayna orduları arasında aktiv döyüş əməliyyatları gedir. Son zamanlar Rusiya həm Ukraynada öz mövqeyini möhkəmləndirib, həm də Kursk cəbhəsində üstünlüklər əldə edib. Kiyev Kurskdakı Ukrayna ordusunun mühasirəyə düşməsi və hərbi kontigentin tam olaraq məhv edilməsi, eyni zamanda daha çox ərazi itirmək təhlükəsi ilə üz-üzə qalıb. Bu səbəbdən atəşkəs Ukrayna üçün lazımdır. Rusiyaya gəlincə, Moskva da müharibənin bitməsində maraqlıdır. Hesab edirəm ki, Moskva Vaşinqtonun atəşkəs təklifinə razı olacaq. Ona görə ki, bu gün Rusiya ilə Qərb arasında diplomatik-siyasi və iqtisadi-enerji münasibətlərinin bərpa olunması, sanksiyaların aradan qaldırılması və Rusiyanın xammal ehtiyatlarının Qərb bazarına daşınması və ölkəyə valyuta ehtiyatlarının axın etməsi Kreml üçün xüsusi əhəmiyyət kəsb edir. Rusiya öz iqtisadiyyatının daha ağır itkilərlə üzləşməsini istəmir. Bu iki faktora nəzər yetirdikdə, yaxın zamanda atəşkəsin elan olunması ehtimalı özünü doğrulda bilər".

## Atəşkəsdən sonra nə baş verəcək?

İ.Hüseynovun sözlərinə görə, post-müharibə dövründə ABŞ-ın Ukraynanın təhlükəsizliyinə zəmanət verməsi gündəmin əsas mövzusu olacaq: "Zelenski hakimiyyəti atəşkəsin elan olunması müqabilində ABŞ-dan təhlükəsizlik zəmanətləri istəyəcək. Sözsüz ki, Vaşinqton da Kiyevə təhlükəsizlik təminatları verəcək. Atəşkəs elan olunduqdan sonra Ukrayna ərzisində min kilometrə yaxın olan təmas xətti qurulacaq. Bu təmas xəttində hər an atəşkəs pozula bilər. Bir məqamı da vurğulayım ki, atəşkəs müddətində sülh danışıqlarının aparılması çox önəmlidir. Bu danışıqlara Səudiyyə Ərəbistanı və Türkiyə, hətta Azərbaycan da ev sahibliyi edə bilər".

*Yunis ABDULLAYEV*

# Yeni müharibəyə hazırlıq...

## Ermənistan niyə silahlandırılır?

**Cənubi Qafqazın əsaslı inkişafı, sabitliyin formalaşması və münasibətlərin normallaşması üçün sülh zəruri şərtdir. Bu mənada məğlub, iqtisadi geriləmənin cəngində boğulan, siyasi böhran yaşayan Ermənistan sülhün formalaşmasında daha maraqlı olmalıdır. 2022-ci ildən ölkəmizin təşəbbüsü ilə başlanan sülh prosesində Azərbaycanın təqdim etdiyi şərtlər beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır - burada yer alan müddəalar İrəvanın qlobal arenada suveren dövlət kimi yer tapması üçün şəraitin formalaşdırılması deməkdir. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı və rəsmi şəkildə tanıması, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən, nəqliyyat və kommunikasiyaların açılışı və bu kimi müddəalar Ermənistanın gələcəyi üçün vacib perspektiv yaradacaq.**

**İrəvan isə bütün destabil addımları bir kənara qoyaraq sülh üçün fəal iş aparmalı olduğu halda, yenidən silahlanma üçün can atır. Bu isə ölkənin Azərbaycana qarşı fəal müharibəyə hazırlaşdığını deməyə əsas verir. Başqa sözlə, bu gün fərqli maraqların Ermənistanı silahlandırması yeni eskalasiyalar üçün hazırlıq deməkdir.**

### Silahlar Ermənistana göndərilir...

Məsələn, bir müddət öncə Fransanın Ermənistana veriləcək 26 ədəd "Bastion" zirehli transportyorundan bəzilərinin istehsalının başa çatdırıldığı ilə bağlı xəbər yayılmışdı. Həmçinin, Paris artıq İrəvana 12 ədəd "Sezar" artilleriya qurğusu ötürüb. İlin sonunadək isə daha 24 belə silah Ermənistana veriləcək.

Sülhün bağlanmaması üçün bütün gücünü ortaya qoyan Paris göründüyü kimi, İrəvanı açıq şəkildə silahlandırır. Bu proses 2024-cü ildə daha aktiv şəkildə aparılıb. Ötən il iyunun 17-də Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki tərəf arasında 36 ədəd "CAESAR" özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanıb. Ən son modifikasiyada alınacaq bu artilleriya sistemlərinin hər biri 5,5 milyon avro dəyərində qiymətləndirilir. Beləliklə, 36 artilleriya sistemi və həmin sistemlər üçün mütləq 155 mm-lik mərmilər əldə edən İrəvan azı 200 milyon avro vəsait xərcləyib.

Bu siyahıya Parisin həmin müqavilədən bir müddət öncə İrəvana satdığı və hər biri 14 milyon avro dəyərində olan 3 ədəd GM200 radar sistemi və 20 milyon dollara "Bastion" zirehli transportyorlarını əlavə etsək, tərəflərin hərbi-texniki əməkdaşlığının çox ciddi rəqəmlərə çatdığını söyləmək olar. Bu isə Cənubi Qafqazda sülhü təhdid edir. Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusundakı XII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, onların silahlanması göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar: "Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir".

### Aİ missiyasının əsl "missiyası"...

Bəli, yenə də Fransanın ortada maneə kimi çıxış etməsi təəccübləndirici deyil. Azərbaycanla bağlanacaq sülh müqaviləsinin hələ də razılaşdırılmamış bəndlərinə nəzər saldıqda, başqa ölkələrin nümayəndələrinin bizim sərhədimizdə yerləşdirməməklə bağlı məsələyə Ermənistanın razılaşmaması bu məsələdə açar rolunu oynayır - Fransa Aİ missiyası adı altında bölgədə varlığını davam etdirməkdə israrlıdır. Prezident İlham Əliyev çıxışında bildirib ki, əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər: "Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var".

2023-cü ilin əvvəlindən etibarən "mülki monitorinq missiyası" adı altında Ermənistana yerləşdirilən bu qrupun missiyası bəllidir. - Avropa İttifaqı, xüsusilə Fransa məhz bu yolla Ermənistana yerləşmək, oradan isə bölgəyə nüfuz etməyə çalışır. Amma bu, mümkün olmur. Belə ki, Azərbaycanın qətiyyətli davranışı "mülki monitorinq" adı altında gizlənən qrupun əsl simasını üzə çıxarır. Heç bir effektivliyi olmayan "binokl diplomatiyası" isə sadəcə lokal maraqların təcəssümüdür - hətta Ermənistana belə faydası olmayan missiya bəzən daxili stabilliyi pozmaq, bəzən şərti sərhəddə gərginlik yaratmaq, bəzən isə qeyri-adekvat "mesajlar" üçün istifadə olunur.



### Müharibə üçün pul ayıran "sülh fondu"...

Azərbaycana qarşı həyata keçirilən, lakin bütövlükdə Cənubi Qafqazda sülhə və təhlükəsizliyə təhdid yaradan "silahlandırma" kampaniyasının miqyası isə getgedə genişləndirilir. Hətta artıq bir müddətdir ki, Aİnin fərqli strukturları Ermənistanın militaristləşdirilməsi prosesinə "fəal dəstək" verməyə başlayıb. Məsələn, Avropa İttifaqı Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımlar göstərilməsi üçün maliyyə yardımı ayırır - bu yardım isə ildən - ilə artırılır. Beləliklə, maliyyə heç də Fondun adına uyğun olaraq "sülhə" deyil, qarşıdurmaların miqyasının daha da genişlənməsinə xidmət göstərir. Dövlət başçısı açılış nitqində bu məsələyə toxunaraq qeyd edib ki, Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür: "Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir".

***P.İSMAYILOV***

# Saxta səadətin cəriməsi

## Gi de Mopassanın "Boyunbağı" novellası haqqında

**əvvəli ötən sayımızda**

Bir həftəlik axtarışdan sonra onlar itikdən əllərini tamam üzüb tədbir tökməyə başlayırlar: əmanət geri qaytarılmalıdır! Ancaq necə? Boyunbağının oxşarını tapıb almaq lazımdır: "Pale-Royal küçəsindəki dükanların birində eynən onların axtardığı boyunbağıya oxşar bir boyunbağı tapdılar. Boyunbağının qiyməti qırx min frank idi. Onlara isə otuz altı min franka satmağa razı oldular. Zərgərdən xahiş elədilər boyunbağını üç gün saxlasın, belə şərt kəsdilər ki, əgər fevralın axırınacan itən boyunbağı tapılsa, bu boyunbağını otuz dörd min franka geri qaytarsınlar".

Luazelin atasından qalma on səkkiz min frankı var, qalan pulu borc-xərc eləməlidirlər. Hərədən bir az qırta-qırta, az qala dilənə-dilənə, ağır sələm, faiz altına girə-girə boyunbağının pulunu düzəldib xanım Forestyenin əmanətini qaytarırlar. Ər-arvadın əsl məşəqqətli günləri də bundan sonra başlanır. Onlar ömürləri boyu qul kimi borc yiyələrinə işləməlidirlər.

Bundan başlayırlar ki, Matildanın bəyənmədiyi evi taxtapuşun altındakı quş damına dəyişirlər. Xanım Luazelin daha qulluqçu saxlamaq imkanı da olmayacaq:

"O, ev işlərinin hamısını özü görməyə başladı. Məişət işlərindən zəhləsi getsə də, axşamacan mətbəxdə eşələndi, qab-qacaq yudu, yağlı qazanın dibini qaşıyanda çəhrayı dırnaqlarını sındırdı. Pal-paltarı öz əlləriylə yudu, tuman-köynəyi, dəsmalı yaxalayıb kəndirə sərdi. Hər səhər tezdən həyətə düşüb evin zibilini atdı, pilləkənlərin başındakı meydançalarda dayanıb nəfəsini dərə-dərə su daşıdı. Bütün yoxsul ailələrdən olan arvadların geydiyi köhnə, nimdaş paltarlardan geyindi, əlində zənbil bazara qaçdı, çörəkçi köşkünə girdi, qəssab dükanına, göysatanlara yan aldı, güc-bəlayla qazandıqları dilənçipayı gəlirlərindən bircə su saldırmaq üçün alverçilərlə ağızlaşdı, çığır-bağır saldı, çənə-boğaz elədi, əlini qısdırıb qəpik-qəpik pul yığdı.

Hər ay vekselin birini ödəyib təzəsini almaq, bir başqasının möhlətini uzatmaq lazım gəlirdi. Əri bir alverçinin haqq-hesabını qaydaya salmaq üçün gecələr işləyir, bəzən də səhərəcən yatmayıb səhifəsi beş suya əlyazma üzü köçürürdü.

Düz on il bu cür yaşadılar. On ildən sonra bütün borclarını, hətta insafsızcasına şişib artan sələmləri belə ödəyib qurtardılar".

***

**Ödəməyinə ödəyirlər, ancaq nəyin hesabına?**

Alışmadığı zəhmətə qatlaşmağa məcbur olan xanım Luazel bu illər ərzində bütün gözəlliyini, zərifliyini itirir, təməlsiz arzularına, imkanlarına bab gəlməyən iddialarına bircə axşam külli-ixtiyar verməsi ona bir ömür bahasına, güvəndiyi gəncliyinin, gözəlliyinin puça çıxması hesabına başa gəlir. Matilda əvvəl bəyənmədiyi, dodaq büzdüyü şəraitini, güzəranını da itirir, halbuki o, qızlığında monastır tərbiyəsi almışdı, nəfsini, qürurunu cilovlamağı, aza qane olmağı hamıdan yaxşı bacarmalıydı. Ər-arvad kürək-kürəyə verib onun şan-şöhrət hərisliyinin, parıldamaq ehtirasının cəriməsini ödədikləri bu on ildə təmkinli, təvazökar zəhmət, namuslu əmək sayəsində ailənin dolanışığı da, yaşayışı da qat-qat irəli gedə bilərdi. İndi isə onlara ancaq quyudan çıxdıqlarına sevinmək qalıb. Qul əməyi, kölə zəhməti onları bir daha dirçəlməyə qoymayacaq, gözəllik, zəriflik bir yana, sağlamlıq da əllərindən gedəcək. Tamahını, ehtirasını, təkəbbürünü yemləyən insan bilməlidir ki, qapısında it yox, canavar saxlayır, gec-tez özünü o canavara yedirdəcək.

Mopassan arzuların, ehtirasların yedəyində keçən ömrü puç sayır. Təbiətin qüdrətindən pay aldığı bər-bəzəyi pozulan Matildanın sonku görkəmi belə miskin ömrə illüstrasiyadır. Qadın o qədər çirkinləşib ki, ən yaxın rəfiqəsi belə onu tanımır. Tanıyanda isə məlum olur ki, bacılığının illər öncə ona verdiyi boyunbağının brilyantları saxtaymış, yəni o zinət əşyasının gerçək dəyəri qırx min franka yox, olsa-olsa beş yüz franka bərabərmiş!

Bəlkə də bacılığı Matildanın zərərini gec də olsa ödəyəcək, onun əzab çəkmiş ürəyinə yüngülcə bir sığal çəkəcək, ancaq rəfiqəsinin bihudə xərclənmiş gəncliyini, solub getmiş gözəlliyini, kif basmış xəyallarını, talanmış ömrünü ona qaytara bilməyəcək.

***

Əslində isə qəlp olan, saxta olan təkcə boyunbağıya düzülmüş brilyantlar deyil, ondan da çox Matildanın ayaq tutmamış arzuları, taxma qanadlı xəyallarıdır. Bir axşamlıq dəbdəbəyə, şan-şöhrətə, hikkəyə cavan ömrü qurban verməyə dəyərdimi? Cəmi bir neçə saatlığa üz güldürən o boyunbağı zinət deyil, fələyin xaltasıdır, fələk o göz qamaşdıran xaltanı qəlbi kasad insanın boynuna salıb onu it kimi istədiyi səmtə aparır, istədiyi kəsə hürdürür. Hərçənd Matilda yenə o günü həyatının ən xoş günütək xatırlayır, düşünür ki, ondan ötrü ömürlük boyunduruğa çevrilmiş boyunbağını itirməsəydi, hər şey ayrı cür olardı.

Ayrı nə cür olacaqdı? Özünü bəyəndirdiyi varlı kişilərdən biri onu məşuqə tutacaqdı. Matilda namuslu, zəhmətkeş ərinin başında yekə bir maral buynuzu bitirib zavallı kişini dost-düşmən yanında xəcil, gözüqıpıq, diligödək eləyəcəkdi. Oynaşı onu atandan sonra ya canının qəsdinə duracaq, ya da yeni varlı kişi axtarışına çıxacaqdı. Bir az yaşlanıb kimsəyə gərək olmayanda elə indiki kimi əldən getmiş gəncliyin, gözəlliyin, sönüb getmiş həvəslərin xiffətini çəkə-çəkə içində çürüyəcəkdi...

Zamanın sərəncam verə bildiyi heç bir vardan-dövlətdən insana sərvət, ömrə sərmayə olmaz. Adam dəli, kor iradəsini cilovlamasa, bu həyatda ona rahatlıq yoxdur. İnsan övladı onu dünya dediyimiz örüşə hörükləyən arzuların ağzına daş basmasa, başına qənaət tacı qoymasa, mələşən ehtirasların sırtıq hay-küyündən qulaq dincliyi tapmayacaq.

Bəşərin gələcəyinə münasibətdə Mopassanın pessimizmi ustadı Floberdən də o yana keçmişdi. Bu məsələdə onun müəllimi Flober yox, yeni dövrün buddası Artur Şopenhauer idi. Mopassan da onun kimi Allahı Fələkdən ayırmır, Yaradanı nə iş tutduğunu bilməyən avam, cahil, kor, qəddar bir güc sayırdı. Ondan ötrü insan - mükəmməl vəhşi, din - fırıldaq alveri, tərəqqi - qanadsız xülya, dostluq isə içiboş söz, aldanış, əfsanədir. Dünyada heç kim heç kimin dərdini çəkə bilməz, insan bu qoca zindanda yaranışdan tənhalığa məhkumdur.

***

Mopassanın yaradıcılığını qadın ensiklopediyası sayanlar da haqlıdır. Yüzlərlə fərqli xanımdan ibarət qalereyası onun qadın xarakteri, qadın psixologiyası sahəsində nə qədər təcrübəli, bilikli olduğuna gözgörəti sübutdur. Uzun sürməyən ömründə - təkcə yaratdığı yox, yaşadığı ömründə də bu sarıdan əsla korluq çəkməmişdi. Onun nəzəriylə baxsaq, qadın təbiətin əkiz bacısı olmaqdan da artıq - təbiətin özüdür. Təbiət insanı da qadının köynəyindən keçirib işıqlı dünyaya gətirir. Qadına yanaşmaq - təbiətə yanaşmaq, qadına qovuşmaq - təbiətə qovuşmaqdır.

Mopassanın donjuanlığı da bütün donjuanların sələfi, baş prototipi Don Juanın əməlləritək fəlsəfi mahiyyət daşıyırdı. O, məftunu olduğu təbiətin qoynuna çox qapıdan, az qala hər qapıdan soxulmağa çalışırdı, panteizm tanrısı kimi dünyaya hər qadının bətnindən zühur eləmək istəyirdi. Ancaq xanımlar xanımı Ana Təbiət təkcə həyat doğurmur, təkcə xoşbəxtlik, həzz vermir, qoynunda zəhərli ilan da bəsləyir, bətnində virus, mikrob da yetişdirir. Ömrünün ən gözəl çağlarını həyat dolu sağlam, ehtiraslı canına bulaşmış mikrobların təhdidi altında yaşayan yazıçı sağalmaz xəstəliyə yoluxduğunu biləndə sevincək yazırdı ki, şükür, daha rahatam, daha mən bu mikroba yaxalanmaqdan qorxmuram (bu yerdə Vahidin misrası yadıma düşür: "Mən bu dərdin çarəsin ölməklə asan eylərəm").

Ona həyat verən də qadın, canına virus yeridib verdiyini geri alan da qadın oldu. Daha doğrusu, qadın adıyla Ana Təbiət özü. Xəstəlik vücudunun məmləkətini zəbt eləyə-eləyə ta paytaxta - beyninə qədər işlədi. Lap axırda aqibəti düşüncəsiylə, yaşadığı yazdığıyla qardaş olub eyniləşdi. Nə başından tökülən pulları, nə görünməmiş şöhrəti, nə villaları, yaxtaları, nə də kölgəsində daldalanan məşuqələri onun dadına çatdı. Ruhunu da, yaradıcılığını da başdan-başa qara dekadans dumanı bürüdü. Baş tutmayan intihar cəhdindən sonra onu dəlixanaya yerləşdirdilər.

Deyilənə görə, ad-sanı üç qitəyə sığmayan yazıçı orada uşaq kimi iməkləyirmiş. Usanmış qələminin kağıza damızdırdığı sonuncu cümləsi də belə olub: "Cənab Mopassan dördayaqlı heyvana döndü".



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



# Ramazan ayı: 18-ci günün duası

**“Allahummə nəbbihni fihi libərəkati əsharih. Və nəvvir fihi qəlbi biziyai ənvarih. Və xuz bikulli ə-zai ilət-tibai asarih. Bi-nurikə ya münəvvirə qulubil-arifin”.**

***Tərcüməsi:***

**“İlahi, bu gün məni səhərlərin bərəkəti ilə oyat! Qəlbimi bu səhərlərin ziyası ilə işıqlat! Bədən üzvlərimi bu günün təsirinə tabe olmağa yönəlt! Nuruna and verirəm, ey ariflərin qəlbini nurlandıran Allah”**

# Çanaqqala dəniz zəfəri



Bu gün Çanaqqala şəhidlərinin anım günüdür. Qeyd edək ki, 110 il bundan öncə, 1915-ci il martın 18-dən 1916-cı il yanvarın 9-dək olan dövrdə Antanta dövlətlərinin hərbi birləşmələri (Britaniya və Fransa) ilə Osmanlı ordusu arasında tarixin ən dəhşətli döyüşləri baş verib. Həmin vaxt Britaniya və Fransa orduları həm dənizdən, həm də qurudan Osmanlı ordusunun mövqelərinə intensiv hücumlar həyata keçirirdilər. On ay davam edən döyüşlərdə 45 min 974 türk əsgəri şəhid olub, 174 min 634 nəfər isə yaralanıb. Çanaqqala döyüşündəki döyüş Türk Qurtuluş Savaşına da təsir etmişdir. Hər il Türkiyədə, eləcə də Azərbaycanda Çanaqqala şəhidlərinin anım günü qeyd olunur, müxtəlif mərasimlər təşkil edilir və onların ruhlarına dualar oxunur.

## Döyüş necə başlayıb?

Tarixi məlumatlara görə, 19 fevral 1915-ci ildə, güclü fransız qüvvələri ilə İngilis Elizabet döyüş gəmisi Osmanlı sahil qüvvələrini bombalayaraq Çanaqqalaya ilk hücum həyata keçirdilər. Admiral Robeckun tabeliyində olan ən azı 16 döyüş gəmisindən ibarət nəhəng donanma Çanaqqalanı keçməyə cəhd edirdi. Ancaq Nüsrət Mina Gəmisi adlı Osmanlı mina gəmisinin boğazın Asiya tərəfinə yerləşdirdiyi dəniz minaları müttəfiqlərin gəmilərinin boğazı keçməsinə imkan vermədi. Bu minaların partlaması nəticəsində ingilis və fransızların üç döyüş gəmisi məhv oldu, bir neçə gəmiyə isə ciddi ziyan dəydi. İngilis və fransız donanmasının öz istəyinə nail ola bilməməsi və ağır itkilərə məruz qalması onlarda çox ciddi təşviş yaratdı. Bu səbəbdən martın 18-də müttəfiqlərin gəmiləri qurudakı Osmanlı ordusunun mövqelərini şiddətli atəşə tutmağa başladılar. Osmanlı ordusunun Mecidiyye və Hamidiyyə istehkamları daha çox atəş altında idi. Çanaqqalanı dəniz yolu ilə keçə bilməyəcəklərini anlayan müttəfiqlər Seddülbahir və Arıburnu cəbhəsi istiqamətindən quruya qoşun çıxardılar. Amma Osmanlı əsgərlərinin ciddi müqaviməti ilə üzləşib geri çəkilmək məcburiyyətində qaldılar.

## Çanaqqalanın strateji əhəmiyyəti

Osmanlı dövlətinə məxsus boğazlar strateji baxımdan Antanta dövlətləri üçün əhəmiyyətli hesab olunurdu. Həm Britaniyanın, həm də Fransanın məqsədi boğazları ələ keçirməklə Almaniya ilə Osmanlını bir-birindən təcrid etmək və İstanbulu zəbt etməklə Osmanlının Qara dənizdə hökmranlığına birdəfəlik son qoymaq idi. Eyni zamanda Rusiya ilə etibarlı qida və hərbi ticarət yolu açmaq da əsas hədəflərdən biri idi. Həmin dövrdə məhdud əlverişli çıxış imkanlarına malik olan Rusiya Britaniya və Fransanın dəstəyinə ehtiyac duyurdu. London və Paris bu dəstəyi təmin etmək üçün dörd strateji yolu nəzərdən keçirirdi. Həmin zaman şimal nəqliyyat xətlərindən ikisinin keçilməz, Şimal dənizinin çox böyük hissəsində suların donmuş vəziyyətdə, Baltik dənizinin alman donanmasının nəzarəti altında olduğundan müttəfiqlərin diqqəti İstanbul boğazlarına yönəlmişdi. Avropalılar düşünürdülər ki, onlar Osmanlını asanlıqla məğlub edib boğazları ələ keçirəcəklər, qələbə çalacaqları təqdirdə isə Osmanlının ərazisi olan bütün Yaxın Şərqə nəzarət edəcəklər. Amma Osmanlı ordusunun qətiyyətli və rəşadətli müqaviməti nəticəsində müttəfiqlər ağır məğlubiyyətə uğradılar, onların bütün hədəfləri puç oldu və öz məqsədlərinə nail ola bilmədilər.

## Çanaqqalanın Azərbaycan şəhidləri

Çanaqqala cəbhəsində verilən mücadiləyə Türk dünyasının hər yerindən minlərlə insan dəstək vermişdi. Qardaşlıq ənənəsinə sadiq qalan Azərbaycan türkləri könüllü olaraq Çanaqqala döyüşünə qatılaraq Osmanlı əsgərləri ilə çiyin-çiyinə düşmən qüvvələrinə qarşı, vuruşmuşdular. Tarixi faktlara görə, 3 mindən çox azərbaycanlı türkçülük, İslam və Vətən uğrunda canlarından keçən 253 min məhmətçiklə eyni taleyi paylaşaraq qəhrəmancasına şəhid olmuşdur.

*Yunis ABDULLAYEV*

# Sonuncu çərşənbə!

## Oyanış dirilmə, canlanma...



Novruzun ən təntənəli mərasimlərindən biri İlaxır-Torpaq çərşənbəsidir. Bu çərşənbə xalq arasında “Yer çərşənbəsi”, “Çərşənbə-suri” də adlanır. Torpaq ünsürü insan yaradılışının əsasını təşkil edir. Eyni zamanda torpaq həm türk mifologiyasından, həm də milli-mənəvi dəyərlərimizdən qaynaqlanaraq müqəddəs hesab olunur.

Bu gün Torpaq çərşənbəsini qeyd edirik. Bu çərşənbə torpağın və özündən əvvəlki 3 mühüm ünsürün-su, od və yelin oyanması, əkinçilik həyatının başlanmasına işarədir. Sonuncu çərşənbə artıq yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir.

## Bayrama necə başlamaq lazımdır?

Axır çərşənbəyə bir neçə gün qalmış evlər təmizlənər. Deyilənlərə görə, bu bayramda təzə paltar geyinmək uğur gətirər. Küsülülər barışar, nəhs danışılmaz, içki içmək, nalayiq işlər görmək olmaz. Sonuncu çərşənbə günü insanın əməli, niyyəti, nəfsi də təmizlənmiş olar.

## Niyyətlər axşamı...

İlaxır çərşənbə axşamı cavan qızlar bir yerə yığışırlar. Bir qaba su tökürlər, əllərindəki üzükləri çıxarıb saçlarına salırlar. Niyyət tutub üzüyü suyun üstündən keçirirlər. Üzük fırlanmağa başlayır və qabın divarlarına dəyir. Üzük neçə dəfə qaba dəyirsə, deməli, həmin qızlar o yaşda da gəlin köçəcəklər.

İnanclara görə, axır çərşənbə gecəsi niyyət tutub yatmaq lazımdır. Sonra isə gecə yarısı yuxudan durub şamı yandırmaq və onu götürüb güzgüyə yaxınlaşırlar. Deyilənə görə, bunu edən qızlar güzgüdə gələcək nişanlısını görə bilərlər.

Bundan başqa ilaxır çərşənbə axşamı ana uşaqlarının başından tük götürür və axar suya atır. Bir qab həmin yerdən su götürür və uşaqlarının üstünə çiləyir. Bu su təmizlik, sağlamlıq, paklıq rəmzi hesab olunur və həmin ili uşaqlar xəstələnmir.

## İlaxır çərşənbə günü evində olmayan şəxs...

İlaxır çərşənbədə hər bir evdə bayram xonçası hazırlanar. Xonçanın ortasına səməni qoyular və ətrafına müxtəlif şirniyyatlar, qoğal, şəkərbura, paxlava, fındıq, qoz, iydə, innab, kişmiş, badam, şabalıd, boyanmış yumurtalar və s. düzülər. Süfrəyə yeməklərin şahı sayılan plov (bayram aşı) gətirirlər. Bayram günü hər kəs çalışar ki, öz evində olsun və ailəsi ilə birlikdə bayram süfrəsində otursun. İnanclara görə, ilaxır çərşənbə günü öz evində olmayan şəxs yeddi il ilaxır çərşənbəni evində olmaz. İlaxır çərşənbə günü nişanlı qızlara, yeni ailə qurmuş gənclərə də bayram xonçası və pay aparılır. Bayram payı müxtəlif hədiyyələr, meyvələr, şirniyyatlar və geyimlərdən ibarət olur.

Yeri gəlmişkən, ilaxır çərşənbəsində yerinə yetirilən bəzi Novruz adət-ənənələrimiz ilk dəfə “Dəli Kür” filmində səhnələşdirilib. Həmin səhnə Şamaxının Dədəgünəş kəndində çəkilib. Beləliklə, Azərbaycan kino filmi tarixində ilk dəfə Novruz bayramı bu filmdə ekranlaşdırılır. Bugünədək həmin səhnə filmin ən maraqlı və gözəl anlarından biri kimi yaşayır.

Filmin bir neçə epizodunda Novruz bayramı ilə bağlı kadrlar-şagirdlərin müəllimlərinə bayram payı gətirməsi, rus müəllimlə yumurta döyüşdürmə, kənd uşaqlarının “Dirədöymə” oynamaları, bacadan şal atmaları və s. təsvir olunub.

## Adət-ənənələrimiz

Mövzu barədə “Yeni Azərbaycan”a danışan folklorşünas Məhəmməd Məmmədov bildirib ki, torpaq çərşənbəsində şənlik və mərasimlər özünəməxsusluğu və rəngarəngliyi ilə seçilir. Onun sözlərinə görə, insanlar sübh tezdən su üstünə çıxar, arzusunu suya danışar və ondan imdad diləyərdilər: “Axşam isə tonqallar alovlanar, üzərlik yandırılar, bacalardan torbalar sallanar, qulaq falı qurular, oyunlar oynanılardı. İlaxır çərşənbələrdə ev və çöl ilə bağlı çoxlu mərasim xarakterli adət-ənənələr var. Təmizlik elə aparılmalıdır ki, həyət-bacanın, ev-eşiyin təmizlənməsi, səliqə-sahmanı, gözəlliyi, Novruz üçün hazır olsun və nəzərə çarpsın”.

M.Məmmədov ilaxır çərşənbədə icra olunan bəzi ayin nümunələrini xatırladıb: “Torpaq çərşənbəsində gecə dan qaranlığında, yəni sübhün gözü açılar-açılmaz axar su üstünə gedilər. Suya salam verib “ağırlığım-uğurluğum tökül” deyə 3 dəfə suyun üstündən atlanırlar. Sonra sudan bir səhəngə doldurub gətirər həyət-bacaya, ev-eşiyə, paltar-palaza, mal-qara üstünə səpilir. Axır çərşənbədə un çuvalının ağzını açıq qoyarlar ki, bərəkət payalananda bağlı qalmasın.

Axır çərşənbə gecəsi cavan qızlar xeyli aralıdan arxası qapıya durub ayaqlarındakı ayaqqabının sağ tayını geriyə atarlar. Ayaqqabının burnu qapıya tərəf düşsə, demək yaxın vaxtda ailə quracaq. İlaxır çərşənbə axşamında bir neçə parça kömürü, bir ovuç duzu və bir-iki qara pulu kuzəyə qoyub damdan atarlar. Deyilənə görə, kömür qara günün, duz gözüşorluluğun, acgözlüyün, qara pul da yoxsulluğun nişanəsidir. Onları kuzəyə qoyub damdan atmaqda niyyət qara gündən, gözüşorluqdan, yoxsulluqdan qurtulmaq arzusudur.

İlaxır çərşənbədə baltanın küpü ilə meyvə ağaclarının kötüyünə bir-iki dəfə yüngülcə vurub deyərlər: “Nə yatmısan, oyan, bərəkət payını götür”. Deyilənə görə, həmin il ağacların məhsulu bol olar”.

Folklorşünasın sözlərinə görə, ilaxır çərşənbədə havanın necə olmasından asılı olmayaraq, insanlar həmişə tarlaya çıxar, əkinə əl qoyub küt qoşar, bunu edə bilməyənlər isə heç olmasa torpağı 2-3 dəfə belləyərdilər. Burada məqsəd torpağı yuxudan oyatmaq və artıq əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir: “İlaxır çərşənbədə qapıpusma və başqa fallar var, insanlar ürəklərində niyyət edib qapı pusarlar. Niyyətləri ilə evdən eşitdikləri sözlər arasında müəyyən uyğunluqlar tapmağa çalışarlar. Bu uyğunluq tapılarsa, o zaman arzularının reallaşacağına inanarlar.

Bu bayramda gənclər səhərə qədər yatmazlar, şənlənib, oxuyub-oynayarlar. Bu sonuncu çərşənbədə insanlar qorxuya, çətinliklərə, uğursuzluqlara sinə gərərək yeni ilə təzə bir ruh, sağlam əhval ruhiyyə ilə çıxmaq arzusunda olarlar”.

***İlaxır çərşənbəmiz mübarək olsun!***

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

Akif Rəsulov, Mamed Rüstəmov, Səyyaf Qubadov, Pənah İmanov, Rauf Binnətov, Elman Qurbanov, Eyvaz Məmmədov, Şövqü Bünyadzadə, Əkbər Rəsulov, Zahid Əhmədov, Rakif Rəsulov, Duman Xudaverdiyev, Bayram Mamedov, Aslan Xəlilov, Ramin Orucov, Davud Binnətzadə və İsmayıl Rəsulzadə Tural Surəddin oğlu Hümbətova atası

**SURƏDDİN MƏMMƏDHÜSEYN OĞLU HÜMBƏTOVUN**

vaxtsız vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verirlər, mərhumun ailəsinə səbr diləyirlər. Allah rəhmət eləsin!

# Azercell “Azərbaycan Biznes Keys Müsabiqəsi 2025”ə dəstək verir

Azercell-in dəstəyi, ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyinin (AAA) təşkilatçılığı ilə ölkənin nüfuzlu biznes müsabiqələrindən biri olan “Azərbaycan Biznes Keys Müsabiqəsi 2025”ə (“Azerbaijan Business Case Competition” ABCC) start verilib. Harvard Business Review-nun real biznes problemlərinə əsaslanan tapşırıqlarının həlli üzərində qurulan müsabiqə tələbələrdə biznes analitikası, strategiya qurulması və maliyyə təhlili sahəsində bilik və bacarıqların inkişaf etdirilməsinə yönəlib.




Müsabiqəyə ümumilikdə 107 komanda müraciəti qeydə alınıb, onlardan 91 komanda müsahibə mərhələsində iştirak edib, 26 komanda isə növbəti mərhələyə vəsiqə qazanıb. Yarışda Azərbaycanın aparıcı universitetlərinin 2, 3 və 4-cü kurs bakalavr və magistr tələbələri iştirak edəcəklər.

Müsabiqənin “Sessiyalar” (ABCC Sessions) mərhələsi çərçivəsində iştirakçılar üçün biznes analitikası və təqdimat bacarıqlarının gücləndirilməsinə yönəlik təlimlər təşkil olunub.

5 aprel tarixində yarımfinal və final mərhələləri keçiriləcək. Final turunda qalib adını qazanmış ilk 3 komanda müvafiq olaraq 8000, 4000 və 2000 AZN mükafata layiq görüləcək.

# Novruz səyahətində “Nar” rouminqi ilə sevdiklərinə yaxın ol!

“Nar” Novruz bayramında xaricə səyahət planlaşdıranlar üçün sərfəli rouminq paketləri təklif edir. Ölkə xaricində olarkən sevdiklərinizlə rahat ünsiyyətdə qalmaq və internetdən sərfəli istifadə etmək üçün “Nar”ın rouminq paketlərindən birini seçə bilərsiniz.

Xüsusilə uzunmüddətli səfərlər üçün “Nar” “Rouminq 20” paketini tövsiyə edir. Bu paket sizə 15 gün müddətində “WhatsApp”dan pulsuz yazışma imkanı ilə yanaşı, 1.2 GB internet trafiki və 20 SMS təqdim edir. Paketi aktivləşdirmək üçün sadəcə *777*720#Yes şifrəsini yığmaq kifayətdir.




Səfərə çıxmazdan öncə nar.az/senin-ucun/rouminq səhifəsinə daxil olaraq öz ehtiyaclarınıza uyğun ən sərfəli paketi seçin və nömrənizdə rouminqin aktiv olub-olmadığını yoxlayın. Rouminq xidmətini aktiv etmək üçün: *777#100#Yes

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# “Bakcell” “Müasir Marketinqin Əsasları Azərbaycan Nəşri”nə qoşulub

İnnovasiya və sürət lideri “Bakcell”, dünya şöhrətli marketinq nəzəriyyəçisi Filip Kotlerin 100 ölkəni əhatə edən Müasir Marketinqin Əsasları (Essentials of Modern Marketing) qlobal təşəbbüsünə qatılıb. Qısa zamanda dünya və Azərbaycan oxucularına təqdim olunacaq kitabda ölkənin aparıcı şirkətlərinin uğur hekayələri yer alacaq.

“Kotler Impact” tərəfindən idarə olunan qlobal layihədə təqdim olunan kitab silsiləsi hər bir ölkəyə özəl yanaşma ilə hazırlanaraq yerli bizneslərin uğurlarını qlobal marketinq prinsipləri ilə birləşdirir. Layihə çərçivəsində artıq 25-dən çox ölkənin, o cümlədən Avropa ölkələri, Braziliya, Hindistan, Pakistan, Türkiyə və s. bazarları haqqında nəşr edilən kitablar oxucuların böyük marağına səbəb olub. Azərbaycan nəşri ölkəmizin biznes mühitini beynəlxalq səviyyədə tanıtmağa, o cümlədən yerli marketinq mütəxəssislərinə qlobal təcrübədən yararlanmaq imkanı verəcək.

“Bakcell” bu layihəyə dəstək verməklə Azərbaycanın və regionun innovativ marketinq yanaşmalarının inkişafına töhfə verməyi hədəfləyir.




**Filip Kotler haqqında**

Müasir marketinqin atası və 80-dən çox kitabın müəllifi olan Filip Kotler, marketinq sahəsində inqilabi nəzəriyyələr yaradaraq, dünya miqyasında biznesin inkişafına təsir göstərib. O, marketinqi psixologiya və iqtisadiyyatla birləşdirərək, müasir marketinqin elmi əsaslarını formalaşdırıb.

Ən məşhur əsərlərindən biri olan “Marketing Management” kitabı dünya universitetlərində marketinq dərsliklərinin əsas qaynağı kimi istifadə olunur. Onun nəzəriyyələri şirkətlərin müştəriyönümlü strategiyalar qurmasına və qlobal bazarlarda rəqabət üstünlüyü əldə etməsinə imkan yaradır.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Azercell məhkum qadınlar üçün “Kitab Klubu” təşkil etdi

***Lider mobil operator Beynəlxalq Qadınlar Gününə həsr olunmuş ədəbi görüş keçirdi***

Azercell-in cəmiyyətdə mütaliə mədəniyyətinin təşviqi məqsədilə həyata keçirdiyi “Kitab Klubu” layihəsi çərçivəsində növbəti görüş baş tutdu. Beynəlxalq Qadınlar Günü ərəfəsində təşkil olunan tədbir 4 saylı cəzaçəkmə müəssisəsi və Qadın Qaynar Xətti ilə birgə əməkdaşlıq çərçivəsində keçirildi. Görüşdə mütaliə və ədəbiyyatın cəmiyyətin mənəvi və mədəni inkişafına, həmçinin sosial inteqrasiyaya təsiri müzakirə olundu.

Tədbirin qonağı tanınmış aktyor, rejissor, ssenari müəllifi Əlixan Rəcəbov Azərbaycan ədəbiyyatında qadın obrazlarının inkişafı barədə danışdı. Əlixan klassik və müasir ədəbiyyatda qadınların rolu, eləcə də kitabların ekranlaşdırılmasının ədəbiyyatın geniş auditoriyaya çatdırılmasında oynadığı mühüm rol barədə fikirlərini bölüşdü.

Görüş zamanı iştirakçılar seçdikləri şeir və ədəbi nümunələri səsləndirdilər, ədəbiyyat barədə düşüncələrini bölüşdülər.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4890**
**Sifariş: 623**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova